alman
əməkdaşlığı
DEUTSCHE ZUSAMMENARBEIT

Implemented by:
giz Deutsche Gesellschaft für Internationale Zusammenarbeit (GIZ) GmbH

AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

# Gender yönümlü həssas yanaşma

## PRAKTİK ALƏTLƏR VƏ NƏZƏRİ ÜSULLAR BƏLƏDÇİ VƏSAİTİ

2021

Vəsait dövlət qulluqçuları, gender bərabərliyi üzrə ekspertlər, bələdiyyələr, müvafiq fənləri tədris edən müəllimlər, tələbələr, genderşünaslar, elmi işçilər, ümumiyyətlə, gender bərabərliyi məsələsi ilə maraqlanan bütün oxucular üçün nəzərdə tutulmuşdur.

Vəsait Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti tərəfindən (Deutsche Gesellschaft für internationale Zusammenarbeit (GIZ) GmbH) Cənubi Qafqazda Yerli İnkişaf üçün Yaxşı İdarəetmə layihəsi və Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə əməkdaşlığı çərçivəsində nəşr olunmuşdur.

| | |
|---|---|
| **Baş redaktor:** | **Sədaqət Qəhrəmanova –** Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini |
| **Vəsaiti hazırladı:** | **Təranə Cəfərova –** Gender və Sosial məsələlər üzrə tədqiqatçı mütəxəssis |
| **Redaksiya heyəti:** | **Elgün Səfərov –** Birləşmiş Millətlər Təşkilatının Qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması üzrə Komitəsinin (CEDAW) sədr müavini, hüquq üzrə fəlsəfə doktoru |
| | **Sevil Rəsulzadə –** Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İctimaiyyətlə əlaqələr sektorunun böyük məsləhətçisi |
| **Layihəyə məsul şəxs:** | **Fidan Qasımova –** Cənubi Qafqazda Yerli İnkişaf üçün Yaxşı İdarəetmə Proqramı, Proqram müşaviri |

# Mündəricat


07 Ön söz

12 Giriş

**14 Gender bərabərliyi nədir. Gender bərabərliyi niyə vacibdir. Gender Yönümlü Həssas Yanaşma Strategiyası**

17 Gender Yönümlü Həssas Yanaşma nədir. Bu istiqamətdə dövlət siyasəti, proqram təminatı və həyata keçirilməsində Gender Yönümlü Həssas Yanaşma Strategiyasının vacibliyi

25 Gender yönümlü həssas yanaşma aspektləri və dövri mərhələləri (müəyyənləşdirmə, planlaşdırma, həyata keçirmə, monitorinq və qiymətləndirmə)

**28 Gender Yönümlü Həssas Yanaşma alətləri, metodları. Proqram və layihələrdə bu vasitələrin tətbiqində nəzərə alınmalı suallar, faktor və elementlər**

31 Gender Yönümlü Təhlil (GYT) Aləti və Tətbiqi

32 Gender statistikası (Cinsi bölgü üzrə məlumatların toplanması və təhlili). Göstəricilər Aləti

34 Maraqlı Tərəflər ilə Gender Həssaslı Məsləhətləşmə (MTGHM) Aləti

35 Gender Yönümlü Təsir Qiymətləndirməsi Aləti

41 Gender Büdcələşməsi

44 Gender Məlumatlılığının Artırılması Aləti və Tətbiqində Nəzərə Alınmalı Amillər

45 Gender Yönümlü Monitorinq Aləti və Nəzərə Alınmalı Cəhətlər

47 Gender Qiymətləndirməsi Aləti və Tətbiqində İstiqamətləndirici Faktorlar

50 Gender Planlaması və Gender Aspektlərini Planlamaya Daxil Etmək üçün Nəzərə Alınmalı Amillər

**54 Gender Yönümlü Analiz. Gender Yanaşmasının Əsas Alət kimi Siyasət və Proqram Tərtibatı və Həyata Keçirilməsində Zəruriliyi, İstifadə Edərkən Soruşulacaq**

55 Əsas Suallar, Gender Analizi üçün Nəzəri Üsullar

68 4R Metodu

70 Moser Nəzəri Analitik Üsul

72 Qısaltmalar və İxtisarlar

73 Terminlər və Anlayışlar Lüğəti

76 Ədəbiyyat Siyahısı



# Ön söz

İctimai həyatın bütün sahələrində gender bərabərliyinin təmin edilməsi, dövlət idarəçiliyi və qərar qəbuletmədə kişilərlə bərabər qadınların fəal iştirakının artırılması Azərbaycan Respublikasının dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Son on ildə respublikada insan hüquqlarının təminatı, regionların sosial-iqtisadi inkişafı, yoxsulluğun azaldılması, məşğulluğun inkişafı sahəsində həyata keçirilmiş bütün tədbirlərdə, qəbul edilmiş dövlət proqramları, milli fəaliyyət planları və digər sənədlərdə gender amilinin nəzərə alınması məqsədilə vacib addımlar atılmışdır.

Ölkəmiz Birləşmiş Millətlər Təşkilatının mühüm sənədi olan "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyanı 1995-ci ildə ratifikasiya etdikdən sonra milli qanunvericilik istiqamətində də vacib sənədlər qəbul edilmişdir. Bunların sırasında "Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında" Prezidentin Sərəncamı (1998), "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Prezidentin Fərmanı (2000) xüsusi qeyd edilməlidir. 1998-ci ildə Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması ilə bağlı Fərman imzalanmış, 2006-cı ildə isə səlahiyyətləri daha da genişləndirilərək, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır.

Bu istiqamətdə ən mühüm addımlardan biri də 2006-cı ildə "Gender bərabərliyinin (kişi və qadınların) təminatları haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsidir. Qanunun məqsədi cinsi ayrı-seçkiliyin bütün fomalarını aradan qaldırmaqla kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində

bərabər imkanlar yaratmaqla gender bərabərliyinin təmin edilməsindən ibarətdir. Qanunun 2.0.2-ci maddəsinə əsasən, gender bərabərliyi – qadın və kişilərin hüquq bərabərliyi və bu hüquqların həyata keçirilməsi üçün bərabər imkanlar və onların cəmiyyətdə bərabər sosial vəziyyətidir. Qanun qəbul edildikdən sonra, xüsusilə də son illərdə dövlət idarəçiliyində gender amilinə diqqət artırılmışdır.

Gender bərabərliyinin təmin olunması məsələsini hədəfə alan digər mühüm sənəd Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasıdır. Ölkəmiz "2030-cu ildədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də əks olunan 17 məqsədi və 169 hədəfi özündə birləşdirən qlobal Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulmuşdur. DİM-in 5-ci məqsədi gender bərabərliyinə nail olmaq, həmçinin bütün qız və qadınların səlahiyyətlərini artırmağa həsr olunub. DİM-ə görə həyatın bütün sahələrində hər iki cinsin təmsil olunması, onların öz hüquqlarını reallaşdıra bilməsi ədalətli, demokratik cəmiyyətin tələblərindən biridir.

Dövlət və özəl sektorda cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin qarşısının alınması məqsədilə gender həssas yanaşmanın təşviqi üzrə fəaliyyətlər gücləndirilməkdədir. Bu sahədə dövlət orqanlarında, təşkilatlarda təyin edilmiş gender məsələləri üzrə məsul şəxslərin potensialının artırılmasına, onların bu barədə maariflənməsinə yönələn layihələr həyata keçirilir. "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" AR Prezidentinin 2000-ci il 6 mart tarixli Fərmanının icrasını təmin etmək məqsədilə təsdiq edilmiş Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2000-ci il 26 sentyabr tarixli Qərarına əsasən nazirlik, komitə, şirkət, konsern və digər müəssisə və təşkilatlarda daxili imkanlar çərçivəsində gender siyasəti tələblərinə uyğun olaraq, gender məsələləri üzrə məsul şəxslər təyin edilmişdir. Bu Qərar bütün dövlət orqanları və digər təşkilatların gender bərabərliyinin təmin edilməsi ilə bağlı fəaliyyətinin

təkmilləşdirilməsinə, həyata keçirdikləri siyasətlərə gender amilinin daxil edilməsinə imkan verir.

Qadınların iqtisadi cəhətdən gücləndirilməsi, onların liderlik qabiliyyətlərinin inkişafı, prioritet sayılan peşə sahələrində kişilərlə bərabər qadınların sayının artrılması, qadın məşğulluğunun və qadın sahibkarlığının dəstəklənməsi kimi məsələlər əhəmiyyət kəsb edir. Əvvəlki illərlə müqayisədə dövlətin idarə olunmasında və qərarların qəbul edilməsində qadınların təmsilçiliyi istiqamətində irəliləyişlər əldə olunmuşdur. Azərbaycanda ictimai sahədə qadınların təmsilçiliyinin artırılması üzrə fəaliyyət istiqamətləri müəyyən edilmişdir: qadınların liderlik qabiliyyətlərinin inkişafı üzrə fəaliyyətlərin davam etdirilməsi; bələdiyyə üzvü olan qadınların iş keyfiyyətinin artırılması istiqamətində tədbirlərin gücləndirilməsi; bələdiyyələrdə gender komissiyalarının yaradılması; ictimai həyatın bütün sahələrində, dövlət və özəl sektorlarda idarəetmə və qərarqəbuletmə səviyyəsində qadınların kişilərlə bərabər təmsilçiliyinin artırılması qarşıda duran əsas hədəflərdəndir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin ikitərəfli əməkdaşlığı çərçivəsində bu günə kimi keçirilmiş çox sayda genişmiqyaslı tədbirlər, mühüm layihələr davam etdirilir. Əməkdaşlığın növbəti istiqaməti gender bərabərliyinin təmin edilməsi və gender yönümlü həssas yanaşmanın tətbiq edilməsi məqsədilə “Gender Yönümlü Həssas Yanaşma” Praktik Alətlər və Nəzəri Üsullar Bələdçi Vəsaitinin nəşridir. Üç fəsildən ibarət olan çap materialımüxtəlif siyasətlərin məzmununa gender perspektivlərinin daxil edilməsini, həmçinin qadın və kişilərin bərabər təmsil olunmasındakı problemləri həll etməyi qarşıya qoyur. Burada gender yönümlü həssas yanaşmanın iki aspekti nəzərdə tutulur: Gender Təmsilçiliyi (qadın və kişilərin bərabər təmsil olunması) və Siyasət Məzmununa Gender Perspektivlərinin Daxil Edilməsi (bərabər faydalanmaları üçün qadın və kişilərin maraq, təcrübə, tələb və ehtiyaclarının nəzərə alınması).

Bələdçi vəsaitində gender bərabərliyi statistikasına da yer ayrılmışdır. Gender bərabərliyinin təmin edilməsi sahəsində vəziyyətin monitorinqi, qiymətləndirilməsi və gələcək fəaliyyətlər üzrə prioritetlərin müəyyən edilməsi üçün çoxsaylı statistik göstəricilərin emalı vacib məsələlərdəndir. Gender statistikası məlumat toplama metodları və vasitələrində gender bərabərsizliyi və gender qərəzliyini daha əhatəli nəzərə alır, gender əsaslı ayrı-seçkiliyə təsir edən və kəsişən faktorları əhatə edir. Beləliklə, gender statistikası qadınların vəziyyət və ehtiyaclarının, eləcə də, bərabərsizliyə təsir edən amillərin daha dərindən təhlilini təmin edir. Kitabçada bu barədə ətraflı məlumatlar əks olunmuşdur.

Gender bərabərliyini təmin etmək üçün "genderə həssas büdcə"nin tətbiq edilməsi aktuallıq kəsb edən məsələlərdəndir. Gender büdcəsi – bütün səviyyələrdə büdcənin həyata keçirilməsində və qiymətləndirilməsində gender amilinin nəzərə alınmasını, gender indikatorlarının işlənib hazırlanmasını və gender balansının gözlənilməsini nəzərdə tutur.Gender büdcəsi mərkəzi və yerli büdcə ayırmalarında qadınların və kişilərin fərqli sosial ehtiyaclarının nəzərə alınmasını da əhatə etməlidir. Bundan əlavə, vəsaitdə Gender Yönümlü Təhlil (GYT) Aləti və Tətbiqi, Maraqlı Tərəflər ilə Gender Həssaslı Məsləhətləşmə (MTGHM) Aləti,Gender Yönümlü Təsir Qiymətləndirməsi Aləti, Gender Məlumatlılığının Artırılması Aləti və Tətbiqində Nəzərə Alınmalı Amillər, Gender Yönümlü Monitorinq Aləti və Nəzərə Alınmalı Cəhətlər, Gender Qiymətləndirməsi Aləti və Tətbiqində İstiqamətləndirici Faktorlar, Gender Planlaması və Gender Aspektlərini Planlamaya Daxil Etmək üçün Nəzərə Alınmalı Amillər kimi mövzular da öz əksini tapır.

İnanırıq ki, "Gender Yönümlü Həssas Yanaşma" Bələdçi Vəsaiti əhatə etdiyi məsələlərin genişliyi və əhəmiyyəti baxımından gender bərabərliyinin təmin edilməsinə mühüm töhfə verəcək, gələcəkdə bu sahədə böyük nailiyyətlərin əldə olunmasında vacib rol oynayacaqdır.

Vəsait dövlət orqanları, gender bərabərliyi üzrə ekspertlər, müvafiq fənləri tədris edən müəllimlər, elmi işçilər, ümumiyyətlə, dövlət idarəçiliyində gender məsələsi ilə maraqlanan oxucular üçün faydalı informasiya mənbəyi hesab edilir.

**Sədaqət Qəhrəmanova**
**Azərbaycan Respublikasının Ailə, Qadın və**
**Uşaq Problemləri üzrə Dövlət Komitəsinin**
**sədr müavini**



# Giriş

## Gender yönümlü həssas yanaşma bələdçi kitabçası haqqında GİZ

***Bu kitabça gender yönümlü həssas yanaşma strategiyası, alət və metodlarından bəhs edir.***

Təlimat vəsaitinin hazırlanmasında əsas məqsəd hər hansı bir layihə və ya siyasətin işlənib hazırlanması, həyata keçirilməsi, eləcə də büdcə və planlama mərhələlərinə gender həssas yanaşmanın daxil edilməsi üçün praktik bilik və bacarıqların təmin edilməsidir.

**Təlimat 3 hissədən ibarətdir:**

**Təlimatın birinci hissəsində aşağıdakı mövzular haqqında ümumi məlumatlar təqdim olunur:**

- Gender bərabərliyi nədir. Gender bərabərliyi niyə vacibdir;
- Gender Yönümlü Həssas Yanaşma(GYHY) strategiyası, siyasət və ya layihələrin işlənib hazırlanması və həyata keçirilməsində GYHY-nin əhəmiyyəti, mühüm aspektləri və dövri mərhələləri

**Təlimatın ikinci hissəsində,** Gender Yönümlü Həssas Yanaşmanın əsas alət və metodları haqqında ümumi məlumat verilir. Həmçinin,bu alət və metodlardan istifadə edərkən nəzərə alınmalı əsas nümunə sualları, mühüm məqamlar və həyata keçirilməli addımlar haqqında təlimatlartəqdim olunur.

**Təlimatın üçüncü əsas hissəsində,** siyasət və ya layihələrin tərtibatı və həyata keçirilməsində gender bərabərsizliyi və boşluqlarını qiymətləndirmək üçün GYHY-nin əsas aləti olan Gender Yönümlü Təhlil haqqında ətraflı məlumat verilir. Bundan əlavə, bu hissədə gender analizi alətindən proqram və ya siyasətin tərtibatı və həyata keçirilməsində istifadə etmək üçün nümunə üçün suallar və digər amillər haqqında təklif və tövsiyələr təqdim olunur. Eləcə də, bəzi əsas nəzəri analitik metodlar - 4R və Moser nəzəri metodlarından qısaca bəhs olunur.

# 01.

# Gender Bərabərliyi nədir?

## Gender bərabərliyi nədir. Gender bərabərliyi niyə vacibdir. Gender Yönümlü Həssas Yanaşma Strategiyası

**Gender Bərabərliyi (Gender Equality)**[1] – Qadın və kişilərin, qız və oğlan uşaqlarının bərabər hüquqları, vəzifələri və imkanlarına aiddir. Gender bərabərliyi – kişi və qadınların öz insan hüquqlarını tam realizə etmək, iqtisadi, sosial, mədəni və siyasi inkişafa töhfə vermək və ondan bəhrələnmək üçün bərabər şərtlərə malik olması deməkdir. Bu baxımdan gender bərabərliyi kişi və qadınların oxşar və fərqli cəhətlərinin, eləcə də onların oynadıqları rolun cəmiyyət tərəfindən bərabər qiymətləndirilməsi deməkdir. Gender bərabərliyi kişi və qadınların ailədə, ictimai həyatda, eləcə də cəmiyyət daxilində bərabər tərəfdaşlığına əsaslanır[2]. Bu konsepsiyanın məqsədi kişi və qadınları eyniləşdirmir, əksinə onların fərqli ehtiyaclarını, prioritetlərini və maraqlarını nəzərə almağı tələb edir. Gender bərabərliyi "qadın problemi" deyil, qadınlarla yanaşı, kişilərlə də əlaqədar olmalı və onları cəlb etməlidir.

[1] https://www.un.org/womenwatch/osagi/pdf/factsheet1.pdf
[2] UN Azerbaijan, English-Azerbaijani Glossary of frequently used terminology

**Gender əsaslı Ədalətlilik (Gender Equity)**[3] - Tez-tez gender bərabərliyi (Gender Equality) termini ilə qarışdırılsa da və gender bərabərliyi kimi tərcümə edilsə də, “Gender equity” termini qadın və kişilərlə ehtiyaclarına uyğun olaraq ədalətlilik prinsipinə uyğun davranılmasını, qadın və kişilərə münasibətdə imkan, resurs, fayda və güc bölgüsündə ədalətin və qərəzsizliyin təmin edilməsini nəzərdə tutur[4]. “Gender equality” hamının sosial-iqtisadi və siyasi həyatda iştirak etmək, cinsi mənsubiyyətlərinə görə məhdudlaşdırılmadan və ya ayrı-seçkilik etmədən inkişaf etmək üçün bərabər fürsət hüququnun tanınmasıdır. “Gender equity” isə imkanlara bərabər çıxışı asanlaşdırmaq üçün zəruri olan tədbirlərin görülməsini tələb edir. Məsələn, qadınların liderlik vəzifələrində təmsilçiliklərini artırmaq üçün iş yerlərində daha açıq, inklüziv və empatik iş mədəniyyətinin inkişaf etdirilməsi qadınların yuxarı vəzifələrə qalxması üçün çıxışlarını yaxşılaşdıra bilər.

[3] https://www.unwomen.org/-/media/headquarters/attachments/sections/library/publications/2011/10/women-s-empowerment-principles_en%20pdf.pdf?la=en&vs=1504
[4] http://www.fao.org/3/i1243e/i1243e00.pdf



# Gender Yönümlü Həssas Yanaşma (GYHY) haqqında

## Gender Yönümlü Həssas Yanaşma nədir. Bu istiqamətdə dövlət siyasəti, proqram tərtibatı və həyata keçirilməsində Gender Yönümlü Həssas Yanaşma Strategiyasının vacibliyi

***Gender Yönümlü Həssas Yanaşma beynəlxalq səviyyədə gender bərabərliyinə nail olmaq üçün bir strategiya kimi qəbul edilmişdir.***

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (UNDP) Gender Yönümlü Həssas Yanaşmanın bütün sahələrə tətbiq edilməsinin aşağıdakı kimi tərifini verir: "İstənilən fəaliyyət sahəsində və istənilən səviyyədə qanunvericilik, siyasət və proqramlar da daxil olmaqla, planlaşdırılan hər bir addımın kişilərin və qadınların həyatına göstərə biləcək təsiri nöqteyi-nəzərindən təhlili"[5].

Gender Yönümlü Həssas Yanaşma (Gender Mainstreaming) qadın və kişilər arasında qeyri-bərabərliyin davam etdirilməməsi üçün bütün siyasi, iqtisadi və sosial sahələrdə siyasət və proqramların tərtibatı və həyata keçirilməsi, monitorinqi və qiymətləndirilməsində qadın və kişilərin ehtiyac, prioritet

[5] http://www.undp.org/content/dam/azerbaijan/docs/Governance/AZ_Gender_in_Civil_Service_Analysis_20101209.docx

və təcrübələrini ayrılmaz bir amil kimi əksini tapmasını təmin edən bir strategiyadır[6].

Gender Yönümlü Həssas Yanaşma beynəlxalq səviyyədə gender bərabərliyinə nail olmaq üçün bir strategiya kimi qəbul edilmişdir. XX əsrin 90-cı illərində beynəlxalq inkişaf sahəsində fəaliyyət göstərən qurumlar, Birləşmiş Millətlər Təşkilatı başda olmaqla qadın-kişi hüquq bərabərliyi, ictimai və özəl həyatda qadınların səlahiyyətlənməsinə yönəlik səylərini "Gender Mainstreaming" adlanan yeni nəzəri və metodoloji yanaşma vasitəsi ilə həyata keçirməyə başladı. Qısa müddət ərzində bu yeni yanaşma BMT-nin İnkişaf Proqramı, digər BMT Agentlikləri və başqa beynəlxalq qurumların fəaliyyətində mühüm yer aldı və 1995-ci ildə Pekin Bəyannaməsi və Fəaliyyət Platforması çərçivəsində qadın-kişi bərabərliyinin bərqərar olunmasında əsas qlobal strategiya kimi öz təsdiqini tapdı. Bu strategiya proqram işçiləri üçün analitik bir vasitədir.[7] Buraya qadın, qız, oğlan və kişilərin ehtiyac və vəziyyətlərinin layihə və ya siyasətin tərtibatı və planlaşdırılması, həyata keçirilməsi, monitorinq və qiymətləndirilməsi kimi mərhələlərində nəzərə alınması daxildir. GYHY dövlət siyasəti, proqram və layihələrin keyfiyyətini artırmaq, resurs, imkan və güc/səlahiyyətlərin daha səmərəli bölgüsünü təmin etmək üçün bir strategiyadır. Bu metodoloji yanaşma vasitəsilə yalnız gender bərabərsizliyinin yaranma hallarının qarşısı alınmır, həmçinin bərabərsizliyin yaranmasına səbəb olan mexanizmləri ləğv etmək üçün mövcud vəziyyətin təhlilini də nəzərdə tutur ("What Is Gender Mainstreaming?" 2019). Yekun sənəd olan Pekin Bəyanaməsi və Fəaliyyət Platformasında tərəfdaş ölkələrin hökumətləri öhdəlik götürürlər ki, gender yanaşmasını təkcə öz siyasət və strategiyalarında

---

[6] https://www.unwomen.org/-/media/headquarters/attachments/sections/library/publications/2011/10/women-s-empowerment-principles_en%20pdf.pdf?la=en&vs=1504
[7] https://www.un.org/womenwatch/osagi/pdf/factsheet1.pdf

deyil, həm də dövlət maliyyə idarəetmə sistemlərinə inteqrasiya etsinlər, eləcə də qadın və kişilər arasında bərabərliyi təmin etmək üçün konkret proqramlara adekvat maliyyələşdirmə ayırsınlar. Bununla yanaşı, gender həssaslı yanaşma strategiyası müasir və səmərəli dövlət idarəçiliyi sahəsində tətbiq olunur.

Azərbaycan hökuməti bütün sahələr və səviyyələrdə gender bərabərliyinə nail olunması, gender əsaslı zorakılıq və ayrı-seçkiliyin aradan qaldırılması üçün müvafiq qanunlar və siyasətlər qəbul etmiş və bir sıra beynəlxalq konvensiyalara və səylərə qoşulmuşdur. Gender bərabərliyi Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Qadın hüquqları və gender bərabərliyi ilə bağlı beynəlxalq konvensiya və sazişlərin ratifikasiyasından əlavə olaraq, hökumət 2006-cı ildə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanun qəbul etmiş, eyni zamanda gender bərabərliyi üzrə institusional struktur yaratmışdır.[8] Qanunda gender bərabərliyinin təmin olunması ilə bağlı dövlətin vəzifələri müəyyən olunur. Dövlətin idarə olunmasında və qərarlar qəbul edilməsində cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, kişilər ilə qadınlara bərabər imkanların yaradılması, bir cinsin nümayəndələrinin üstünlüyünə yol verilməməsi dövlət vəzifələri olaraq təyin edilir. Bundan əlavə, dövlət siyasətində qadınların imkanlarının genişləndirilməsi məqsədilə strateji qərarların qəbulu, qanunvericiliyin gender ekspertizasının aparılması, qadın və kişilərin bütün dövlət qurumlarında bərabər təmsil olunmaları nəzərdə tutulur. Hökumətin 2012-ci ildə qəbul etdiyi "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında diqqət ölkədə gender bərabərliyinin

[8] Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanun (150-IIIQ nömrəli, 10 oktyabr 2006-cı il tarixli); Dövlət Qadın Siyasətinin İcrası üzrə Prezidentin sərəncamı (6 mart 2000-ci il tarixli). Prezidentin "Azərbaycanda dövlət qadın siyasətinin icrası" ilə bağlı sərəncamının həyata keçirilməsinə dair Nazirlər Kabinetinin Qərarı (176 nömrəli, 26 sentyabr 2000-ci il).

təmin olunmasına və gender əsaslı zorakılığın aradan qaldırılmasına yönəlmişdir. 2019-cu ildə hökumət "2020-2024-cü ilər üçün Gender Bərabərliyi üzrə Milli Fəaliyyət Planı"nı hazırlayıb. Prioritet tədbirlərdən başqa (gender bərabərliyi və hüquqlar ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi, əmək bazarında rəqabətədavamlılığın artırılması, qadınlar arasında kiçik biznes sahələrinin inkişafı, qadınların siyasi və sosial həyatda, qərarların qəbulunda və rəhbərlikdə iştirakının artırılması), MFP bütün siyasət və fəaliyyətdə gender amilinin inteqrasiyasını nəzərdə tutur[9]. Sənəd gender bərabərliyini təmin etmək üçün müvafiq nazirliklərin siyasət və proqramlarına genderin inteqrasiyası üçün institusional əlaqə kimi dövlət qurumlarında gender üzrə əlaqələndirici şəxslərin mandatını gücləndirir[10]. Bütün bu dövlət siyasətləri və proqramları hər bir sektor üzrə inklüziv inkişafın və gender amillərinin inteqrasiyasının vacibliyini vurğulayır. Azərbaycan 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəliyi təsdiq etmiş və gender bərabərliyini təşviq etmək də daxil olmaqla, Davamlı İnkişaf Məqsədlərinə (DİM) nail olmaq üçün fəaliyyətə başlamışdır. Gender yönümlü həssas yanaşma aləti olan Gender Amillərini Nəzərə alan Büdcə (GANB), dövlət maliyyə idarəetmə (DMİ) sisteminə inteqrasiya etmək üçün bir çox işlər görülməkdədir. GANB bu anlayışa əsaslanır ki, dövlət büdcəsi ilə bağlı qərarlar və onları dəstəkləyən dövlət maliyyə idarəetmə (DMİ) sistemləri kişi və qadınlar üçün iqtisadi və sosial nəticələrə təsir göstərə bilər[11]. Dövlət maliyyəsinə gender bərabərliyini

[9] Gender Bərabərliyi üzrə Milli Fəaliyyət Planının Layihəsi, 2020-2024, səh. 5. 24 fevral 2020-ci ildə hökumət Azərbaycanda Gender əsaslı cins seçiminin aradan qaldırılması və ləğvi üzrə Milli Fəaliyyət Planını təsdiq etmişdir.
[10] Gender Bərabərliyi üzrə Milli Fəaliyyət Planı, 2020-2024, səh. 1
[11] PEFA-nın Katibliyi.2020. Gender Amillərini Nəzərə alan Dövlət Maliyyə İdarəetməsinin Qiymətləndirilməsi üçün Əlavə Çərçivə, səh 32, Velham və digərlərinə istinadən. 2018

inteqrasiya etmək məqsədilə GANB-ın tətbiqi Azərbaycan hökumətinin gündəliyində əsas mövzulardan birinə çevrilmişdir. Beynəlxalq təcrübə göstərir ki, GANB-ın icrası güclü büdcə cavabdehliyi sisteminə malik ölkələrdə uğurlu olur. Azərbaycanda DMİ-nin şəffaflıq və cavabdehlik aspektləri 2017-ci ildən inkişaf edib[12]. Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) həyata keçirdiyi "Cənubi Qafqazda Yaxşı Yerli İdarəetmə proqramı" çərçivəsində seçilmiş iştirakçılar (AQUPDK və MN-dən) üçün GANB ilə bağlı 2 tədris səfəri (Avstriya və Ukraynaya) təşkil olunmuş və 2018-2019-cu illərdə GANB-la bağlı təlim keçirilmişdir. Həmçinin, AİB-in Azərbaycan üzrə ölkə gender qiymətləndirilməsində GANB Azərbaycanda gender bərabərliyini təşviq etməklə bağlı mühüm istinad nöqtəsi kimi tövsiyə olunur[13].

[12] Beynəlxalq Büdcə Tərəfdaşlığı. 2017. Azərbaycan üzrə Açıq Büdcə Sorğusu.
[13] AİB. 2019. Azərbaycan üzrə Ölkə Gender Qiymətləndirilməsi. Manila.

# Gender yönümlü həssas yanaşmanın prinsipləri [14]

**Aşağıdakı dörd prinsip bütün gender yönümlü fəaliyyət və tədbirlərə şamil olunur.**

### 1. Gender əsaslı məlumatların toplanması və təhlili

- Məlumat cinsi bölgüyə əsasən toplanmalı, təhlil olunmalı və təqdim edilməlidir. Yaş, etnik mənsubiyyət, gəlir və təhsil səviyyəsi kimi sosial ölçülər mümkün olduğu halda məlumatda əks olunmalıdır.
- İlkin vəziyyətin gender yönümlü təhlili hər bir qərar üçün əsas meyar olmalıdır.

### 2. Xidmətlər və onlardan istifadəyə bərabər çıxışın olması

Xidmət və məhsullar qadın və kişilərə təsirlərinə görə qiymətləndirilməlidir. Bunun üçün aşağıdakıları aydınlaşdırmaq vacibdir:

- Xidmət və məhsullardan kimlər istifadə edir (qadınlar, kişilər və ya hər ikisi)?
- Benefisiarlar kimlərdir (qadınlar, kişilər və ya hər ikisi)?
- Hədəf qrupları kimlərdir (qadınlar, kişilər və ya hər ikisi)?

[14] https://www.wien.gv.at/english/administration/gendermainstreaming/principles/five-principles.html

- Qadın və kişilərin fərqli ehtiyacları varmı?
- Xidmət və ya məhsullar işlənib hazırlanarkən qadın və kişilərin müxtəlif vəziyyətləri nəzərə alınıbmı?
- Bütün hədəf qruplarının eyni məlumat mənbələrinə çıxışı varmı?
- Kim daha çox faydalanır?
- Təklif olunan xidmətlərdən istifadə edə bilmədiyinə görə ən çox hansı qrup əziyyət çəkəcək?
- Xidməti təmin edən ofislər strukturca gender yönümlüdürmü və əngəllərdən azaddırmı? (yəni gözləmə yerləri, işıqlandırma, pilləkənsiz çıxış, işarələr və s.)

### 3. Qadın və kişilər qərarqəbuletmədə eyni dərəcədə iştirak edirlər

- Qərarqəbuletmənin bütün səviyyələrində balanslaşdırılmış gender nisbəti (qadın və kişilərin say nisbəti) üçün məcburi hədəflər var.
- Qərarqəbuletmənin bütün səviyyələrində balanslaşdırılmış gender nisbətinə istiqamətlənmiş tədbirlər və strategiyalar qəbul edilməlidir.
- Bu prinsip, həmçinin işçi qrupları, layihə qrupları, komissiyalar və məşvərət şurasının tərkibini təyin edərkən, tədbirlər təşkil edərkən, nümunə üçün natiqlər seçərkən də olduqca vacibdir.
- İş yerləri strukturca gender yönümlü tərtib olunmalıdır və mümkün qədər maneələr törətməməlidir (məsələn, gender yanaşmalı

işarətlər, kifayət qədər işıqlandırma, qorxuducu halların qarşısının alınması. Məsələn, binanın zirzəmisində yerləşən çətin çıxışlı arxivlər, pilləkənsiz çıxışlar, müxtəlif peşələr üçün sosial otaqlar və s.).

### 4. İdarəetmə prosesinə bərabər davranmanın inteqrasiya olunması

İdarəetmə alətlərinə keyfiyyətin idarə olunması və genderyönümlü büdcə də daxildir. Aşağıdakı məqamların qeyd edilməsi vacibdir:

- Qadın və kişilərin müxtəlif vəziyyətlərinin nəzərə alınması, müvəffəqiyyət dərəcəsi, effektivlik, kadr və maliyyə vəsaitindən maksimum istifadəni yaxşılaşdırır.
- İnsanlara aid olan bütün hədəflər tam bərabərlik baxımından müəyyən edilir və əldə edilən hədəflər rutin nəzarət nəticələri də daxil olmaqla, gender baxımından təqdim olunur.

# Gender yönümlü həssas yanaşma aspektləri və dövri mərhələləri

## Müəyyənləşdirmə, planlaşdırma, həyata keçirmə, monitorinq və qiymətləndirmə

***Gender yönümlü həssas yanaşma müxtəlif siyasətlərin məzmununa gender perspektivlərinin daxil edilməsini, həmçinin qadın və kişilərin bərabər təmsil olunmasındakı problemləri həll etməyi tələb edir.***

Gender yönümlü həssas yanaşmanın hər iki aspekti - Gender Təmsilçiliyi (qadın və kişilərin bərabər təmsil olunması) və Siyasət Məzmununa Gender Perspektivlərinin Daxil Edilməsi (bərabər faydalanmaları üçün qadın və kişilərin maraq, təcrübə, tələb və ehtiyaclarının nəzərə alınması) - siyasətin inkişafı prosesinin bütün mərhələlərində nəzərə alınmalıdır.



- **Siyasətdə Gender Təmsilçiliyi Aspekti:** Qadın və kişilərin həm siyasətin benefisiarları kimi təmsil olunmasına, həm də işçi qüvvələrində və qərar qəbuletmə prosesində təmsilçiliyinə diqqət yetirir.
- **Siyasət Məzmununda Gender Perspektivləri Aspekti:** Qadın və kişilərin siyasətdən bərabər faydalanmaları üçün gender perspektivlərinin siyasət fəaliyyətlərinin məzmununa daxil edilməsini nəzərdə tutur.

## GYHY-nin dövri mərhələləri (müəyyənləşdirmə, planlaşdırma, həyata keçirmə, monitorinq və qiymətləndirmə)

Gender perspektivinin siyasət, proqram və layihələrin hər bir mərhələsinə daxil edilməsi, qadınlar və kişilər arasında bərabərliyin qərarverici şəxslərin bütün qərarlarında rəhbər prinsip kimi nəzərə alınması deməkdir.

Siyasət, layihə və ya proqrambir proses olaraq bir çox dövri mərhələlərlə - müəyyənləşdirmə, planlaşdırma, həyata keçirmə, monitorinq və qiymətləndirmə kimi mərhələlərlə izah edilir. Dəyişikliklər baş verdikcə bir çox hallarda bu mərhələlər özləri bir dövrə çevrilir və hər addım təkrarlanır. Məsələn, hər hansı bir siyasət qiymətləndirildikdə yeni problemlər üzə çıxa bilər ki, yenidən proqram tərtibatı və planlamasına ehtiyac duyula bilər və bu halda dövri mərhələ yenidən təkrarlanır.

GYHY Dövri Modeli gender aspektlərinin siyasət və ya layihə prosesinə tətbiq olunması üçün bir sıra addımlardan ibarətdir. GYHY alət və metodlarının məqsədi siyasət, proqram və ya layihə tərtibatı və inkişafında gender yönümlü yanaşmanın tətbiqini daha da başa

düşülən etməkdir. Aşağıdakı şəkildə dövri mərhələlərin hər birində istifadə edilən gender yönümlü metod və vasitələr təsvir olunub[15].

## Müəyyənləşdirmə

**Metod və alətlər**

- Gender əsaslı statistika
- Gender əsaslı təhlil
- Gender əsaslı təsir qiymətləndirilməsi
- Maraqlı tərəflərlə gender əsaslı məsləhətləşmələr

## Planlaşdırma

**Metod və alətlər**

- Gender büdcəsnin tətbiqi
- Gender əsaslı alqı-satqı
- Gender göstəriciləri

## Yoxlama

**Metod və alətlər**

- Gender monitorinqi
- Gender qiymətləndiriməsi

## Həyata keçirmə

**Metod və alətlər**

- Gender bərabərliyi təlimi
- Gender həssas institusional transformasiya

Bəzi metod və alətlərdən, məsələn, maraqlı tərəflər ilə məsləhətləşmə və gender bərabərliyi təlimi kimi alətlərdən istifadə siyasət və ya proqramın bir çox mərhələlərindəfaydalı ola bilər.

Əlavə olaraq, məlumatlarla işləyərkən onların cinsi bölgü üzrə toplanıb təhlil olunmasını da diqqətdə saxlamaq lazımdır.

[15] http://www.fao.org/3/i6854e/i6854e.pdf

# 02.

# Gender yönümlü həssas yanaşma alətləri

## Gender yönümlü həssas yanaşma alətləri, metodları. Proqram və layihələrdə bu vasitələrin tətbiqində nəzərə alınmalı suallar, faktor və elementlər

Bu bölmədə layihə dövrü ərzində gender yönümlü yanaşmanın tətbiqi üçün alətlər təqdim olunur. Burada problemin müəyyənləşdirilməsi və vəziyyətin təhlili, planlaşdırma, həyata keçirmə, monitorinq və qiymətləndirmə mərhələləri üçün tələb olunan xüsusi alətlərdən istifadə qaydaları təqdim olunur. Bu alətlərdən maarifləndirmə, təbliğat, gender yönümlü məlumatların toplanması, müdaxilələrin planlaşdırılması və təsirinin qiymətləndirilməsi üçün istifadə edilə bilər.

# Gender Yönümlü Həssas Yanaşma Alət və Metodları

- Gender əsaslı təhlil
- Gender əsaslı audit / təftiş
- Gender əsaslı məlumatlılığın artırılması
- Gender büdcələşdirilməsi
- Gender bərabərlik təlimi
- Gender əsaslı qiymətləndirmə
- Gender əsaslı təsir qiymətləndirmə
- Gender göstəriciləri
- Gender əsaslı monitorinq
- Gender əsaslı planlaşdırma
- Gender əsaslı satınalmalar
- Gender statistikası
- Maraq tərəflərilə gender həssaslı məsləhətləşmə
- İnstitusional transformasiya
- Cinsi bölgü üzrə məlumatların toplanması təhlili

# Gender Yönümlü Təhlil (GYT) Aləti və Tətbiqi

***Gender Yönümlü Təhlil siyasət, layihə və ya proqramın müəyyənləşdirilməsi mərhələsində istifadə olunan gender yönümlü həssas yanaşmanın vacib alətidir.***

GYT gender perspektivlərini siyasət, proqram və layihələrə tətbiq etmək üçün lazımi informasiya və statistik məlumatlarla təmin edir. GYHY inteqrasiyasının başlanğıc nöqtəsi olaraq gender analizi, qadın və kişilərin cəmiyyətdəki mövqeyi və onların müəyyən bir kontekstdə resurs, imkan, məhdudiyyət və güc bölgüsündə fərqlərini müəyyənləşdirir, bərabərsizliyi aradan qaldırmaq, fərqli ehtiyaclarını qarşılamaq üçün lazımi müdaxilələrin işlənib hazırlanmasına köməklik göstərir. Növbəti bölmədə (Bölmə 3) bu alət haqqında daha ətraflı və geniş məlumat verilir.

# Gender statistikası (Cinsi bölgü üzrə məlumatların toplanması və təhlili). Göstəricilər Aləti

***Gender statistikası v ə göstəriciləri gender perspektivinin statistik məlumatların toplanması, təhlili və təqdim edilməsinə tətbiqini təmin edir.***

Bu alət GYHY-nın bütün dövri mərhələlərinin ayrılmaz hissəsi olaraq hər hansı siyasət, proqram və layihə müdaxilələrinin qadın və kişilərin fərqli ehtiyac və prioritetlərinə cavab verməsini təmin edir, qadın və kişilər arasındakı münasibət və ya vəziyyətlərindəki dəyişiklikləri ölçür. Bu məqamda cinsi bölgü üzrə məlumatla gender statistikası alətlərini eyniləşdirmək olmaz. Cinsi bölgü üzrə məlumat, məlumatların qadın və kişilər üçün ayrıca toplanmasını nəzərdə tutur. Gender statistikası isə məlumatın daha dərin toplanmasıdır. O, məlumat toplama metodları və vasitələrində gender bərabərsizliyi və gender qərəzliyini daha əhatəli nəzərə alır, gender əsaslı ayrı-seçkiliyə təsir edən və kəsişən faktorları, məsələn, yaş, təhsil, ailə tərkibi, doğulduğu və əlilliyi olduğu ölkə və s. kimi sosial-iqtisadi faktorları əhatə edir. Beləliklə, gender statistikası qadınların vəziyyət və ehtiyaclarının, eləcə də, bərabərsizliyə təsir edən amillərin daha dərindən təhlilini təmin edir. Gender statistikası və göstəricilər üçün iki əsas məlumat toplama üsulu mövcuddur: keyfiyyət və kəmiyyət üsulları. Kəmiyyət metodu sayıla bilən nəticələri təqdim edir. Bu metod hesablana biləcək məsələlərə, nümunə üçün, əmək

bazarında qadın və kişilərin faizləri, kişi və qadınların əmək haqqı səviyyəsi, qız və oğlanların məktəbə qeydiyyata alınma dərəcələri kimi məsələlərə diqqət yetirir. Keyfiyyət metodologiyası isə insanların təcrübə, fikir, münasibət və hisslərini öyrənir. Nümunə üçün, maneələr və ya qeyri-rəsmi sektorda çalışmağın üstünlükləri ilə bağlı qadınların təcrübəsi və ya kişi və qadınların fikirləri, qadınların daha yüksək vəzifələrdə az təmsil olunmasının səbəbləri və nəticələri haqqında fikir və təcrübələrin öyrənilməsi.

Keyfiyyət və kəmiyyət metodlarından istifadə edərək aşağıdakı nümunə göstəriciləri üzrə gender yönümlü məlumatları toplamaq olar:

**Səhiyyə və əlaqədar xidmətlər üzrə:**

- Evli və ya birlikdə yaşayan, 15-49 yaşarası qadınlar arasında kontraseptivdən istifadə
- Beş yaşınadək ölüm nisbəti, cinsinə görə
- Ana ölümü nisbəti
- 15 yaşdan yuxarı insanlar arasında siqaretin cinsiyyətə görə yayılması
- Cinsi bölgü üzrə şişmanlığa görə böyüklərin nisbəti
- 15-49 yaşarası HİV/QİCS ilə yaşayanlar arasında qadınların payı
- Cinsə görə 60 yaşında ömrün uzunluğu

**İctimai həyat və qərar qəbulu**

- Hökumətdə nazir vəzifələrində qadınların payı
- Parlamentdə qadınların yerlərinin nisbəti
- İdarəetmə vəzifələrində qadınların payı

- Qadın polis məmurlarının sayı (faizlə)
- Qadın hakimlərin sayı (faizlə)

**İnsan hüquqları çərçivəsində qadın və qız uşaqlarının hüquqları**

- 15-49 yaşlı qadınların son 12 ayda partnyorları tərəfindən fiziki və ya cinsi zorakılığa məruz qalması
- Son 12 ayda intim partnyorlarından əlavə, başqa şəxslər tərəfindən fiziki və ya cinsi zorakılığa məruz qalan 15-49 yaşlı qadınların nisbəti
- 18 yaşından əvvəl evlənmiş və ya birlikdə olan 20-24 yaşarası qadınların nisbəti və s.

# Maraqlı Tərəflər ilə Gender Həssaslı Məsləhətləşmə (MTGHM) Aləti [16]

***Maraqlı tərəflər ilə məsləhətləşmə aləti GYHY-nın iştiraklı alətidir.***

Bu alət səslərin eşidilməsi və prioritetlərinin təmsil olunması üçün qadın və kişilərin, o cümlədən vətəndaş cəmiyyəti təşkilatları və gender ekspertlərinin siyasətin formalaşması prosesində iştirakını təşviq və təmin edən prosesdir. Burada "maraqlı tərəf" termini, dövlət siyasətini təmin edən, siyasətə təsir edən və ya bu siyasətdən təsirlənən və faydalananlara aiddir. Məsləhətləşmə/məşvərət gender bərabərliyi ilə bağlı məsələlərdə maraqlı tərəflərin rəy, fikir və baxışlarını əldə etməyi nəzərdə tutur.

Gender yönümlü məsləhətləşmələr qanunvericilik, siyasət, proqramlar, layihələr, xidmətlər və xüsusi müdaxilələrə tətbiq edilə bilər. Məsləhətləşmə proseslərini müxtəlif metodologiyalardan istifadə edərək həyata keçirmək olar. Məsələn, böyük miqyaslı məsləhətləşmələr üçün onlayn sorğular, ümumi iclaslar, müşavirə sorğuları; kiçik miqyaslı məsləhətləşmələr üçün isə (layihələr və xüsusi tədbirlər) fokus qrupları və ya müsahibələr daha uyğun ola bilər.

[16] http://www.fao.org/3/i6854e/i6854e.pdf

## Gender Yönümlü Təsir Qiymətləndirməsi Aləti [17]

Gender yönümlü təsirin qiymətləndirilməsi verilən qərarların qadın və kişilər arasında  bərabərliyə mənfi təsir edəcək ehtimalların qabaqcadan müəyyənləşdirilməsini təmin edən hər hansı bir qanun, siyasət və ya proqramın ilkin qiymətləndirilməsi və təhlili kimi şərh olunur.

Gender yönümlütəsir qiymətləndirməsində soruşulan əsas sual budur: Qanun, siyasət və ya proqram qadın və kişilər arasında gender bərabərsizliyini azaldır, qoruyur və ya artırırmı?

Bu alətin əsas məqsədi hər hansı ayrı-seçkiliyin təsirinin aradan qaldırılmasını və ya azaldılmasını təmin etmək üçün siyasətə lazımi düzəlişlərin edilməsidir.

[17] https://migrationnetwork.un.org/resources/gender-impact-assessment-gender-mainstreaming-toolkit

Tərəfsizliyin olmamasına baxmayaraq, siyasətlər çox vaxt qadın və kişilərə fərqli təsir göstərir, hətta sosial, mədəni və ya iqtisadi gender bərabərsizliklərini daha da artıra bilər. Bu baxımdan, bu alət siyasətçilərə yeni qaydaların, siyasətlərin və ya proqramların kişi və qadınların həyatına, ümumiyyətlə gender bərabərliyinə təsirini qiymətləndirməyə imkan verir.

**Gender yönümlü təsir qiymətləndirməsi aşağıdakı mərhələlərdə həyata keçirilə bilər:**

01

Addım

## Siyasətin məqsədinin müəyyən edilməsi

İlk addım planlaşdırılan siyasət, qanun və ya proqramın məqsədini müəyyənləşdirmək və bunun gender bərabərliyi ilə əlaqəsini göstərməkdir.

?

**Aşağıdakı suallardan istifadə etməklə təsiri müəyyənləşdirmək olar:**

Bu siyasət / qanunvericilik müdaxiləsi və ya fəaliyyəti ilə hansı sosial problem həllini tapır? Niyə bu problem üçün məhz bu fəaliyyət nəzərdə tutulur? Nəzərdə tutulan müdaxilə gender bərabərliyinə töhfə vermək məqsədi daşıyırmı? Müdaxilə gender bərabərliyinə necə töhfə verməyi nəzərdə tutur? Bu məqsədlə mövcud gender bərabərliyi hədəfləri hansılardır?

02

Addım

## Genderlə əlaqəsinin yoxlanılması

Bir qanun, siyasət və ya proqram kontekstləşdirildikdən sonra onların gender əlaqəsini müəyyənləşdirmək lazımdır. Yəni gender bərabərliyinə təsir edib-etməyəcəyini təhlil etmək lazımdır.

!

**Bunun üçün aşağıdakı elementlər nəzərə alınmalıdır:**

1. Hədəf qrupu: Son hədəf qrupu həm fiziki, həm də hüquqi şəxslər daxil olmaqla insanlardır.

2. Hədəf qrupuna təsir: Təklif olunan təşəbbüs qadın və kişilərin resurslara çıxışlarına  və ya resursları idarə etməsinə təsir edir, qadın və kişilərin sosial vəziyyəti və ya mövqelərini yaxşılaşdırmaq və ya pisləşdirməklə təsir göstərir.

03

Addım

## Gender həssaslı təhlili

Genderlə əlaqəli bütün qaydalar, siyasət və proqramlar qadın və kişilərin yaşayış və resurslara çıxışına təsir göstərir. Bu təsir “gender təsiri” kimi bilinir. Belə bir analiz bir tərəfdən müvafiq qrupların mövcud vəziyyətini və bu vəziyyətin hökumətin müdaxiləsi olmadan necə inkişaf edəcəyini anlamağa çalışır, digər tərəfdən planlaşdırılan müdaxilənin mövcud vəziyyəti necə dəyişəcəyini ölçür.

?

**Bu kimi əsas suallardan istifadə edərək müdaxilənin təsirini araşdırmaq olar:**

Qadın və kişilərin gözləntiləri və ehtiyacları nədir?; Bu ehtiyac və gözləntilər qadın və kişilər üçün fərqlidirmi? Planlaşdırılan müdaxilə fərqli maraqları, rolları və mövqeləri nəzərə alaraq həm kişilərin, həm də qadınların ehtiyaclarını ödəyirmi? Qadın və kişilərin ehtiyaclarının dəstəklənməsini necə gücləndirmək olar? Qadın və kişilər arasında qeyri-bərabər gəlir bölgüsü dəyişəcəkmi? Hansı dəyişikliklərolacaq?; Qadın və kişilər arasındakı vaxtın qeyri-bərabər istifadəsi dəyişəcəkmi? Nə kimi dəyişikliklər olacaq?; Qadınların məşğulluq səviyyəsi artacaqmı? Dəyişikliklər nələr olacaq?; Əmək bazarında gender seqreqasiyası azalacaqmı? Dəyişikliklər nələr olacaq?

04

Addım

## Gender təsirini ölçmək

Bu, siyasət və ya qanunvericilik fəaliyyətlərinin gender bərabərliyinə necə töhfə verəcəyini müəyyənləşdirir, həmçinin gender münasibətlərindəki gözlənilən təsiri qiymətləndirir.

?

**Bunun üçün hər hansı təşəbbüsün müsbət, neytral və ya mənfi gender təsirini ölçmək üçün aşağıdakı meyarları nəzərə almaq faydalı ola bilər:**

1. Qadın və kişilərin iştirakı; Təsir o halda müsbət hesab olunur ki, yetərincə təmsil olunmayan cinsin nümayəndələrinin təmsilçiliyində əhəmiyyətli bir artım təmin edilsin.

2. Resurslara çıxış imkanları və idarə edilməsi; Məqsəd qadın və kişilərin vacib resurslara, məsələn, təhsil, məşğulluq, karyera, səhiyyə, vaxt, pul, güc, məlumat, yeni texnologiyalar və s. Kimi resurslara çıxış imkanlarını təhlil etməkdir.

3. Gender əsaslı sosial norma və dəyərlər; Məqsəd layihənin gender əsaslı sosial norma və gender rollarına necə təsir göstərdiyini, qadın və kişilərin bərabər sosial dəyərlərinin, qadınlıq və kişiliyin təbliğinə necə töhfə verəcəyini qiymətləndirməkdir.

05

Addım

## Siyasət / qanunvericiliyin təkmilləşməsi üçün tapıntılar və tövsiyələr

Yekun addım olaraq, gender yönümlü təhlilin nəticələri təqdim olunur və siyasət / qanunvericilik təşəbbüsünün təsirləri (müsbət və ya mənfi) vurğulanır.

?

**Analizin nəticələrini nəzərə alaraq, siyasət, layihə və proqramın müxtəlif hissələrində gender bərabərliyinin necə gücləndiriləcəyini aşağıdakılarla müəyyənləşdirmək mümkündür:**

1.Gender bərabərliyi Qanununun müqəddiməsi, siyasət və ya proqramın məzmununun müəyyənləşdirilməsində, habelə ona istinad edilən hüquqi çərçivədə qeyd edilməlidir;

2.Gender bərabərliyi iştirak edən bütün maraqlı tərəflərin öhdəliklərini təşviq etmək üçün siyasət və ya layihənin məqsədində nəzərə alınmalıdır.

3. Qeyri-tarazlıq və bərabərsizliyi azaltmaq üçün fəaliyyətlər, eləcə də gender bərabərliyini təşviq etmək üçün tədbirlər siyasət və ya proqramın müxtəlif aspektlərinə daxil edilməlidir.

4. Gender-neytral dilin istifadəsini təmin etmək, sənəd və ya materiallarda qadın və kişilər arasında ədalətli vizuallığın təmin olunması üçün dil yenidən nəzərdən keçirilməlidir.

https://eige.europa.eu/gender-mainstreaming/toolkits/gender-impact-assessment/step-5-findings-and-recommendations

# Gender Büdcələşməsi

***Gender büdcələşməsi - büdcə prosesində gender yönümlü həssas yanaşmanın tətbiqidir.***

Bu o deməkdir ki, dövlət büdcəsi qadın və kişilərin həyatına təsirlərinə görə təhlil edilir və gender bərabərliyi hədəflərinə uyğunlaşdırılır. Gender büdcələşməsi həm qadınların, həm də kişilərin ehtiyaclarının nəzərə alınmasının vacibliyini vurğulayır. Bu, gender bərabərliyini təşviq etmək üçün büdcənin gender əsaslı qiymətləndirilməsi, büdcə prosesinin bütün səviyyələrində gender perspektivini özündə birləşdirən, gəlir və xərcləri ona görə nəzərdən keçirməyi təmin edən alətdir. Bu alətin digər üstünlüyü ondadır ki, siyasətə dair qərarların keyfiyyətini və eləcədə inzibati tədbirlərin şəffaflığının artırılmasına kömək edir [18].

Gender büdcəsi gender əsaslı ayırmaların (məsələn, qadınlar üçün xüsusi proqramlar) təhlilini, bütün sahələr və xidmətlər üzrə əsas xərclərin qadın və kişilərə ayrı-ayrılıqda təsirini, dövlət xidmətləri sahəsində bərabər imkanların yaradılmasına istiqamətlənən strategiya və ayırmaların öyrənilməsini əhatə edir [19].

[18] https://www.un.org/ruleoflaw/blog/portfolio-items/austria-gender-budgeting/

[19] http://www.budget.az/upload/files/Gender_budget_-_final_versiont_-_az.pdf

## Gender büdcələşməsinin effektiv həyata keçirilməsini təmin etmək üçün bəzi ümumi elementlər mövcud olmalıdır: [20]

[20] https://op.europa.eu/s/pedz

- büdcə və siyasətlərin gender baxımından təhlili;
- gender büdcəsini ümumi gender bərabərliyi məqsədləri ilə əlaqələndirmək;
- büdcənin restrukturizasiyası və siyasətə dəyişikliyin edilməsi;
- gender perspektivlərinin bütün büdcə mərhələlərinə inteqrasiya olunması;
- nailiyyətlərin monitorinq və qiymətləndirilməsi;
- büdcə prosesinin şəffaflığı;
- büdcə prosesində iştirak.

## Büdcədə gender perspektivlərini müəyyən etmək üçün diqqət yetirilməli olan cəhətlər:

Layihədə bütün layihə və ya siyasət tərtibatı xüsusiyyətləri, strategiyaları və mexanizmləri üçün büdcə ayırmaları olunubmu? Büdcə faydalananların ehtiyaclarını nə dərəcədə qarşılayır? Büdcədən istifadə edənlərin gender ehtiyac və rolları məmnuniyyət səviyyəsinə necə töhfə verir? Qadınların iştirakını asanlaşdırmaq üçün ayrıca bir büdcə (və ya büdcə maddəsi) olacaqmı? Maliyyə vəsaiti planlaşdırılan işləri başa çatdırmaq üçün kifayətdirmi? Hədəf qrupda olan, lakin xidmətlərə çıxışı olmayanların qarşılaşdığı çətinlik və maneələr. Siyasətlər, xüsusən gender bərabərliyi siyasəti və büdcə qərarları arasında əlaqə (və ya əlaqənin olmaması). Büdcə gender

bərabərsizliyini nə dərəcədə azaldıb, kəskinləşdirib və ya dəyişməyib? Büdcə və əlaqədar siyasətlər qayğı iqtisadiyyatında qadın və kişilərin fərqli iştirak nisbətlərini necə nəzərə alır? Gender bərabərliyinə töhfə vermək üçün büdcə ayırmaları və əlaqədar siyasətlərdə, o cümlədən gəlir siyasətində hansı dəyişikliklər zəruridir və sairə.

**Gender Büdcələməsi üç mərhələdə aparılır:**

**Mərhələ 1: Büdcənin gender perspektivi baxımından analizi:** :
Analizin birinci səviyyəsi, büdcə proqramlarının ən başlıca istifadəçisi və ya faydalananları haqqında cinsə görə bölünmüş hesabatının hazırlanması.

**Mərhələ 2: Büdcənin gender analizinə əsasən restrukturizasiyası:**
Analiz, büdcə resurslarının gender bərabərliyinə əsasən bölünmədiyini aşkar edərsə, bölgüdəki bərabərsizliyi aradan qaldırmaq üçün büdcənin yenidən tərtibatını tələb edir.

**Mərhələ 3: Analiz kateqoriyası kimi genderin büdcə proseslərinə tətbiqi:** Gender əsaslı büdcə yalnız büdcənin məzmununa deyil, həm də büdcə tərtibatı prosesinə də aiddir. Bu, gender yanaşmasının büdcələşməyə tətbiq olunması işidir.

# Gender Məlumatlılığının Artırılması Aləti və Tətbiqində Nəzərə Alınmalı Amillər [21]

Siyasət, layihə və ya proqramın həyata keçirilməsi mərhələsində istifadə olunan gender məlumatlılığının artırılması (GMA) aləti, cəmiyyətdə müsbət dəyişikliyə nail olmaq üçün fikir mübadiləsini asanlaşdırmağa, qarşılıqlı anlaşmanı yaxşılaşdırmağa, lazım olan bilik və bacarıqları inkişaf etdirməyə kömək edən bir prosesdir. Gender məlumatlılığının artırılması gender bərabərliyi haqqında bilik  və anlayışların artırılmasına yönəlmişdir.

**Aşağıdakı əsas məsələlərə diqqət yetirməklə maarifləndirmə prosesinə nail olmaq olar:**

---

[21] https://op.europa.eu/s/pedB

**Hədəf qrupu kimdir?** Hər hansı bir gender məlumatlandırma təşəbbüsünə başlamazdan əvvəl hədəf qrupun sosial-demoqrafik xüsusiyyətləri (məsələn, cinsi, yaşı, etnik mənsubiyyəti, təhsil səviyyəsi və digər müvafiq xüsusiyyətlər) nəzərə alınmaqla  maarifləndirmə təşəbbüslərini inkişaf etdirmək lazımdır.

**Mesajın məzmunu nədir?** Məlumatlılığın artırılması prosesində istifadə olunan mesaj və məlumatlandırma tədbirlərinin məzmunu vacib gender bərabərliyi məsələsi ətrafında tərtib olunub hazırlanmalıdır.

**Hansı gender əsaslı məlumatlandırma tədbirlərindən istifadə edilməlidir?** Seçilən məlumatlandırma tədbirlərinin növü məzmundan, siyasət, proqram və ya layihənin məqsədindən asılıdır. Məsələn, televiziya, qəzet, radio və veb saytlar kimi genişmiqyaslı mediadan istifadə etməklə əsas mesajları geniş yaymağı hədəfləyən kommunikasiya təşəbbüsləri; xüsusi qrupları hədəfləyən mesajların ötürülməsi üçün kütləvi tədbirlər (məsələn, konsertlər, festivallarda məlumat stendləri və s.); mesajın onlayn yayılması və interaktivliyi təmin edən sosial media və sosial şəbəkələrdən istifadə; çap materialları və sairə.

**Gender həssas dilin istifadəsinin əhəmiyyəti:** Yalnız kişilərə aid olan termin və isimlərdən istifadə etməkdən çəkinmək; stereotip, cinsiyyətə istinad edən sifətlərdən, seksist termin və ifadələrə (məsələn, qadınlara "zəif cins" kimi) istinad etməkdən çəkinmək.

## Gender Yönümlü Monitorinq Aləti və Nəzərə Alınmalı Cəhətlər [22]

Layihə və ya siyasətin yoxlanılması mərhələsində istifadə olunan bu alət müəyyən edilmiş gender bərabərliyi hədəfləri və göstəricilərinə əsasən işlərin plan üzrə gedib-getmədiyini və gender yanaşmasının tətbiqi ilə bağlı qoyulmuş məqsədlərə nail olunub-olunmadığını yoxlayır, müəyyən edilmiş problemləri həll etməyə və gender bərabərliyini təmin etmək üçün dəyişikliklər etməyə imkan verir.

Gender həssas monitorinqi həyata keçirilməkdə olan siyasət və ya layihənin qabaqcadan müəyyənləşdirilmiş hesablana və ya ölçülə bilən gender bərabərliyi göstəriciləri/indikatorları üzrə həyata keçirilir.

Gender bərabərliyi göstəriciləri və ya indikatorlar inkişaf fəaliyyətlərində iştirak edən və onlardan faydalananların cinsi bölgü üzrə məlumatlarının toplanmasını və təhlilini tələb edən ölçülərdir.

---

[22] https://op.europa.eu/s/pedA

## Gender Bərabərliyi Göstərici/İndikatorları Nəyi Ölçməlidir?

Gender bərabərliyi göstəriciləri aşağıdakıları ölçməlidir:

- Qadın, kişi, oğlan və qızların siyasət və layihələrdə iştirakı, təmin edilən fayda, nəticə və təsirdə fərqlilikləri;
- Gender münasibətlərindəki dəyişikliklər (müsbət və ya mənfi) - yəni bərabərliyə doğru dəyişikliklər və ya kişilər və qadınlar, qızlar və oğlanlar arasındakı bərabərsizliyə doğru dəyişikliklər;
- Bu dəyişikliklərin inkişaf hədəflərinə, xüsusən, iqtisadi artım, yoxsulluğun azaldılması və davamlı inkişafa necə təsir göstərdiyini müəyyənləşdirmək.

Mənbə: J. Hunt. 2011. Gender Həssas Monitorinq və Qiymətləndirməyə giriş. Dərc olunmamış təlim qeydləri.

**Gender həssas monitorinqin həyata keçirilməsində aşağıdakı qrup göstəricilərdən (indikator) istifadə olunur:**

- **Məzmun üzrə Göstəricilər (Context Indicators):** Gender baxımından istifadə olunan məzmun göstəriciləri müxtəlif siyasət sahələrində qadınların mövqeyi və gender boşluqlarının yoxlanılmasına hədəflənən göstəricidir.

- **Tətbiq Göstəriciləri (Application Indicators):** Siyasət və ya layihənin hədəfə aldığı əhalinin xüsusiyyətlərini ölçməyə yönəlmiş indikatordur.
- **Proses Göstəriciləri (Process Indicators):** Bu göstəricidən həyata keçirilən siyasət və ya layihənin idarəetmə səmərəliliyini ölçmək üçün istifadə olunur.
- **Nəticə Göstəriciləri (Result or Output Indicators):** Layihənin sonunda əldə olunan məhsulu təsvir edir. Məsələn, hər isifadəçiyə təklif olunan istiqamətləndirici sessiya və ya təlim saatlarının sayı və s.
- **Səmərəlilik Göstəriciləri:** İstifadə olunan resurslar və nəticələr arasında əlaqəni ölçür. Məsələn, siyasət və layihə çərçivəsində həyata keçirilən hər hansı fəaliyyətin real qiyməti ilə təxmin edilən dəyəri arasındakı fərq və s.

## Gender Qiymətləndirməsi Aləti və Tətbiqində İstiqamətləndirici Faktorlar [23]

Gender yönümlü monitorinq və qiymətləndirmə bir layihə/proqram və ya siyasətin qadın və kişilərin fərqli prioritet və ehtiyaclarına cavab verib-vermədiyini, gender münasibətlərinə təsirini, eləcə də, monitorinq və qiymətləndirmə üçün tələb olunan gender aspektlərinin müəyyən edilməsində istifadə olunur. Gender həssas qiymətləndirmə

[23] https://op.europa.eu/s/peea

davam edən və ya tamamlanmış bir layihənin və ya siyasətin tərtibatı, planlaşdırılması, həyata keçirilməsi və nəticəsinin gender baxımından sistemli və obyektiv qiymətləndirilməsidir. Qiymətləndirmə hesabatı həm qadınlar, həm də kişilər üçün uzunmüddətli nəticələri ölçmək üçün cinsə görə ayrılmış keyfiyyət və kəmiyyət məlumatlarına əsaslanmalıdır.

Yaxşı təcrübə və bu təcrübələrdən dərs almaq üçün vacib bir proses olan gender həssas qiymətləndirmənin üç aspekti var:

**1. Siyasət, layihə/proqramların təmin etdiyi fəaliyyət, məhsul və xidmətlərin qiymətləndirilməsi:** Məramlar yerinə yetirilibmi? Nümunə üçün, siyasi liderlik təlimindən sonra neçə qadının siyasi iştirakçılıqda özünəinamı artdı?

**2. Nəticələrin qiymətləndirilməsi:** İnkişaf məqsədi nə dərəcədə əldə edilmişdir? Nümunə üçün: Layihə başlayandan bəri neçə qadın və kişi yerli hökumət qurumlarında işə götürülüb?

**3. Prosesin qiymətləndirilməsi:** Layihə və ya siyasət fəaliyyətlərinin təmin etdiyi xidmət və məhsullar, nəticələr necə təmin olunmuşdur? Məsələn, tərəflərin prosesə cəlbi qadınların tam və səmərəli iştirakına kömək etdimi?

Qiymətləndirmə meyarları olan uyğunluq, səmərəlilik, effektivlik, təsir və davamlılıq kimi meyarlar üzrə nümunə suallar aşağıda verilmişdir:

- **Uyğunluq:** Layihə gender bərabərliyi üçün əlverişli şəraitin yaradılmasına təsir göstəribmi? Qadınların praktik və strateji gender ehtiyaclarına[24] cavab verdimi? Gender bərabərliyi prinsipləri (bərabərlik, iştirakçılıq, inklüzivlik, səlahiyyətlərin artırılması və s.) siyasət və ya layihə müdaxilələrinin tərtibatı, planlaşdırılması və əldə olunan nəticələrdə əksini tapıbmı? Layihə kişi, qadın və digər əsas qrupların prioritetləri və ehtiyaclarına nə dərəcədə uyğun idi?

- **Səmərəlilik:** Gender aspektləri büdcəplanlaması, büdcə hesabatı və fəaliyyətlərin icrasına inteqrasiya olunubmu? Gender perspektivləri təchizatlarda əks olunubmu? Siyasətin həyata keçirilməsi gender bərabərliyi baxımından səmərəlidirmi? Həm qadınlar, həm də kişilər üçün yaxşılaşdırılmış nəticə əldə etmək üçün vəsait və mənbələrdən səmərəli istifadə olunurmu? Qadınlar və kişilər üçün nəticələr sərfəli qiymətlərlə əldə olunubmu? Xərclər və mənfəətlər bərabər olaraq ayrılıb və paylanılıbmı?

- **Effektivlik:** Layihə/proqram nəticələri gender bərabərliyinə nail olmaq üçün təsirli oldumu? Əldə olunan nəticələr planlaşdırılan nəticələrin əldə edilməsinə kömək etdimi? Layihə və siyasətin faydaları kişi və qadın hədəf qruplarına sərfəli oldumu?

- **Təsir:** Gender bərabərliyi və qadın hüquqlarının yaxşılaşdırılması üçün layihə nəticələrinin daha geniş siyasət, proses və proqramlara təsiri nə oldu? Məsələn, qadınlara qarşı zorakılığın azaldılmasına təsiri olubmu? Qadın və kişilər arasında reproduktiv əmək və ailə məsuliyyətlərinin daha balanslı paylanmasına kömək etdimi?

- **Davamlılıq:** Maliyyələşmə bitdikdən sonra gender bərabərliyi ilə bağlı nailiyyətlər davam edəcəkmi? Siyasətin məqsəd və hədəflərikişi və qadın faydalananlar tərəfindən nə dərəcədə mənimsənilib? Layihə qadın və kişilərin strateji gender ehtiyaclarını nə dərəcədə həll etmişdir? Gender bərabərliyinin davamlı yaxşılaşmasına səbəb oldumu?

---

[24] Praktik gender ehtiyacları-ənənəvi gender rollarından irəli gələn məsuliyyət və vəzifələri: Strateji gender ehtiyacı-qadın və kişilərə daha böyük bərabərliyə və mövcud gender rolları və stereotiplərini dəyişdirməyə kömək edir.

[25]Reproduktiv əmək və ya ödənişsiz iş-əsasən ailə üzləri və yaxınların qayğısına qalma və ev işləri, məsələn, təmizlik işləri, yemək bişirmək, uşağın qayğısına qalma kimi işlərin görülməsi üçün vəzifələri nəzərdə tutur

# Gender Planlaması və Gender Aspektlərini Planlamaya Daxil Etmək üçün Nəzərə Alınmalı Amillər[26]

Gender perspektivlərinin siyasət və layihələrə daxil edilməsi siyasət dövrünün bütün mərhələlərində həm qadın, həm də kişilərin ehtiyaclarının nəzərə alınmasını tələb edir. Siyasətin planlama mərhələsində tətbiq olunan bu alət, layihə və ya siyasətin gender perspektivi baxımından həyata keçirilməsi üçün planlaşdırılması və tərtib olunması prosesinə aiddir.

Hər hansı siyasət və ya layihənin tərtibatı və planlaşdırılmasında gender yönümlü planlaşdırmanı həyata keçirmək üçün aşağıdakı addımlara əməl olunur:

---

[26] https://op.europa.eu/s/pedZ

01

Addım

### Problemin müəyyənləşdirilməsi

Bu addımda qərarverənlərin gündəliyinə məsələ daxil olur, siyasət və ya layihənin müdaxiləsi üçün problem müəyyənləşdirilir. Gender analizi vasitəsilə qadın və kişilərin ehtiyacları, rolları, resursları, imkanları və müvafiq sahədəki dövlət müdaxiləsinin məhdudiyyətləri müəyyənləşdirilir.

02

Addım

## Siyasət / proqram / layihənin müəyyən edilməsi

Bu addım əvvəlki analizə əsaslanaraq müdaxilə yanaşmasının formalaşdırılmasını və alternativ həllər toplusunu müəyyənləşdirməyi əhatə edir. Yanaşmanın formalaşdırılması siyasətin müdaxiləsi üçün ən uyğun gender həssas yanaşmanı müəyyənləşdirməyi nəzərdə tutur.

03

Addım

## Əməliyyat tərtibatı

Bu mərhələdə müdaxilə, onun təşkilati və çatdırılma detalları ətraflı müəyyənləşdirilib hazırlanır. Bu mərhələdə qərar qəbuledənlər müdaxilənin nəticələrini, nəticələrə nail olmaq üçün görüləcək işləri, tərəfdaşları, onların rollarını, lazımi büdcəni, həmçinin çatdırılma prosedurları, vaxtı və təşkilati quruluşu müəyyənləşdirirlər.

04

Addım

## Büdcənin müəyyənləşdirilməsi

Gender büdcələşməsi müdaxilə tədbirləri üçün vəsait ayrılmasında həm qadınların, həm də kişilərin ehtiyaclarının əks olunmasını təmin etmək üçün istifadə oluna bilər.

## Gender aspektlərinin siyasət və yalayihələrin tərtibatı, planlaması və həyata keçirilməsinə daxil edilib-edilmədiyini müəyyənləşdirmək üçün nümunə yoxlayıcı suallar:

https://civicus.org/documents/toolkits/guidelines%20for%20gender%20mainstreaming%20in%20project%20stages.pdf

- Ev təsərrüfatlarının iqtisadi vəziyyətləri haqqında məlumat (məsələn, gender / yaş / torpaq mülkiyyəti / idarə edilməsi; gəlir mənbələri / növləri / gəlirlərinidarə edilməsi və s.) layihənin planlaşdırılması və qiymətləndirilməsi üçün kifayətdirmi?
- Layihənin məqsədləri nələrdir? (məsələn, gender münasibətlərinin yaxşılaşdırılması, gender faktorları haqqında ictimaiyyətin biliklərini artırmaq və s.)
- Hədəf faydalananlar kimlərdir?
- Layihənin bütün komponentlərindən qadınlar birbaşa faydalanacaqmı?
- Layihə tərtibatında qadınların layihədə fəal iştirakını asanlaşdıran strategiyalar mövcuddurmu?
- Qadınların layihədə potensial iştirakı üçün hüquqi, mədəni, dini və ya digər məhdudiyyətlər mövcuddurmu? Bu faktorları aradan qaldırmaq üçün strategiyalar hazırlanıbmı?
- Kişi və qadınların fəaliyyəti, resurslara çıxışları və nəzarətləri, struktur amillər (hüquqi, adət, institusional amillər) tərəfindən necə müəyyənləşdirilir?

- Layihənin məqsədləri praktik və strateji gender ehtiyacları ilə aydın şəkildə əlaqəlidirmi? Bu məqsədlərin qoyulmasında həm kişi, həm də qadınlar iştirak edibmi?
- Layihə hansı fəaliyyətləri (istehsal, reproduksiya, ictimai-siyasi fəaliyyət) əhatə edir?
- Qadın və kişilərin planlaşdırılan fəaliyyətə münasibətləri eynidirmi?
- Hədəf sektorunda və ya fəaliyyətdə hansı konkret dəyişikliklər planlaşdırılır? Bu dəyişikliklər qadın və kişilərə hansı müsbət və ya mənfi təsir göstərə bilər?
- Layihədə kişilər və qadınlar necə iştirak edəcəklər və hansı qisimdə?
- Qadın məsələlərinə yönəlik hansı dövlət qurumları və QHT-lər maliyyə, ya da təcrübə ilə layihəyə töhfə verə bilər?
- Layihədə nəyin ediləcəyinə və ya edilə bilməyəcəyinə yaxud necə edilməsinə təsir edəcək tənzimləmə siyasəti varmı?
- Yerli qadın təşkilatları ilə məsləhətləşmələr aparılıbmı?

# 03.

# Gender yönümlü analiz

## Gender Yanaşmasının Əsas Alət kimi Siyasət və Proqram Tərtibatı və Həyata Keçirilməsində Zəruriliyi, İstifadə Edərkən Soruşulacaq Əsas Suallar, Gender Analizi üçün Nəzəri Üsullar [27]

Gender yönümlü analiz gender perspektivini siyasət və ya layihələrə daxil etmək üçün lazımi statistik məlumat və informasiyalarla təmin edir. Gender yönümlü yanaşmanın tətbiqinin başlanğıc nöqtəsi olaraq, gender təhlili qadınlar və kişilər arasındakı fərqləri cəmiyyətdəki nisbi mövqelərinə və müəyyən bir kontekstdə resurs, imkanlar, məhdudiyyətlər və güc bölgüsünə əsasən müəyyənləşdirir.

### Gender Yönümlü Analiz nə vaxt aparılmalıdır?

Gender Yönümlü Analiz istənilən vaxt siyasət, layihə və proqram dövrünün hər hansı bir mərhələsində həyata keçirilə bilər:

- Hər hansı siyasət / proqram / layihənin ilkin tərtibatı zamanı;
- Hər hansı siyasət / proqram / layihənin həyata keçirilməsindən əvvəl;
- Toplanılan məlumatların gender, eləcə də qadın və kişilərin fərqli ehtiyaclarına cavab verməsi baxımından səmərəli olduğunu başa düşmək üçün siyasət və ya layihənin monitorinqi və qiymətləndirilməsi zamanı.

---

[27] https://op.europa.eu/s/ped3

## Gender analizindən istifadə edərkən soruşulacaq əsas sualların nümunələri aşağıdakılardır:

- Müəyyən bir problemlə qarşılaşan qadın və kişilərlə problemin həll yolu ilə bağlı məsləhətləşmə aparılıbmı? Onlar həll yolunun hazırlanmasına necə cəlb olunublar?
- Siyasət təşəbbüsündə və ya proqramda iştirak etmək üçün qadınları həvəsləndirmək və imkan yaratmaq üçün hansı konkret mexanizmlər təklif olunub?
- Kim nə edir? Qadın və kişilər nə edirlər, bu fəaliyyətlər harada və nə vaxt baş verir?
- Kimin nəyi var? Resurs, xidmətlər və qərar qəbuledilməsinə kimin çıxışı və nəzarəti var?
- Siyasət, proqram / layihə, kişi və qadınlar arasında mövcud tapşırıq və məsuliyyətlər, eləcə də resurs bölgüsü ilə ziddiyyət təşkil edirmi?
- Fəaliyyət, imkan və xidmətlərə çıxış və onların idarə edilməsi nümunələri sosial-iqtisadi məzmun, struktur amillər (demoqrafik, hüquqi və institusional) eləcə də, mədəni və dini amillərə görə necə formalaşır?
- Dəyişiklik üçün imkanlar və ya giriş nöqtələri haradadır? Həmin imkanlar ən yaxşı necə istifadə edilə bilər?

Gender analizi layihə və ya səyasətin tərtibatı və planlamasının müxtəlif mərhələlərində həyata keçirilir. İlk növbədə, gender analizi, müdaxilə üçün müəyyən inkişaf problemini müəyyənləşdirmək, seçilən problemlə bağlı gender bərabərsizliyinin sistemik səbəblərini

aydınlaşdırmaq üçün vəziyyətin təhlilini formalaşdırmağa kömək edir. Vəziyyətin analizi, müxtəlif inkişaf sahələrindəki işlərin, məsələn, ətraf mühit, yoxsulluğun aradan qaldırılması, və digər sahələrdə işlərin gender təsirlərinin qiymətləndirilməsini tələb edir. BMT-nin gender analizi alətindən istifadəsinə dair bələdçi vəsaitinə görə, gender analizi layihə və ya siyasətin tərtibatı və planlamasında aşağıda göstərilən sualları aydınlaşdırır. [28]

---

[28] https://info.undp.org/sites/bpps/SES_Toolkit/SES%20Document%20Library/Uploaded%20October%202016/UNDP%20Guidance%20Note%20how%20to%20conduct%20a%20gender%20analysis.pdf

## Qadın və kişilərin fərqli ehtiyac və maraqlarını müəyyənləşdirmək üçün istifadə olunan nümunə suallar:

- Müəyyən etdiyiniz problemin qadın və kişilərə eyni dərəcədə təsir edib-etmədiyini analiz etmisinizmi?
- Problemin təhlilinə bölünmüş məlumatları daxil etmisinizmi?
- Gender boşluqlarını müəyyən etmisinizmi? Əsas səbəblərini təhlil etmisinizmi?

## Layihənin həll edəcəyi problemlə bağlı mövcud olan milli imkanları müəyyənləşdirmək üçün istifadə olunan nümunə suallar:

- Layihə tərəfindən həll ediləcək problemlə əlaqəli gender bərabərsizliyinə dair mövcud milli imkanları müəyyən etmisinizmi?
- Layihədə problem ilə bağlı CEDAW[29] və UPR[30] tərəfindən ölkə üçün verilən əsas tövsiyələri nəzərə almısınızmı?
- Problemlə əlaqəli bütün milli hüquqi baza və siyasətlər təhlilə daxil edilibmi? (Gender perspektivi onlara daxil edilibmi? / Qadınlara yönəlmiş gender bərabərliyi və ya gender ilə bağlı siyasətlər mövcuddurmu?)

---

[29] 1979-cu ildə BMT Baş Assambleyası tərəfindən qəbul edilən "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında" Konvensiya (CEDAW) https://www.un.org/womenwatch/daw/cedaw/

[30] Universal Dövri İcmal (UDİ), bütün BMT Üzv Dövlətlərinin insan hüquqları qeydlərinə baxılmasını özündə ehtiva edən bir prosesdir https://www.ohchr.org/EN/HRBodies/UPR/Pages/UPRMain.aspx

## Gender yönümlü analiz alətindən istifadə edərək müdaxilə strategiyalarının formalaşdırılması (layihə prioritetləri, potensial risk, gender faydaları və fərqləndirici təsirləri və s.)

### ? Zəruri strategiya, iştirakçılar və müdaxilələri müəyyənləşdirmək üçün istifadə olunan nümunə suallar:

- Layihənin qadın və kişilərə gözlənilən mənfi təsiri varmı? (yəni iş yükünün artması, kredit, su, torpaq kimi resurslara çıxış)
- Təklif olunan layihə kişi və qadınların vəziyyətindəki mövcud bərabərsizliyi azaldır və ya aradan qaldırırmı?
- Təklif olunan layihə, qadınvə kişilər və onların rolları / vəzifələri haqqında təsəvvür və stereotipləri dəyişəcəkmi?
- Gender perspektivini gücləndirmək üçün hansı variantlara fikir verilməlidir?
- Dəyişiklik üçün imkanlar harada mövcuddur? Həmin imkanlar ən yaxşı necə istifadə edilə bilər?
- Qadınların layihədə iştirak etməsini təşviq və təmin etmək üçün hansı xüsusi mexanizmlər təklif oluna bilər?
- Hökumətin qadınların səlahiyyətlərinin artırılmasına olan cavabdehliyini gücləndirməyin ən yaxşı yolu nədir?

## Gender yönümlü analiz alətindən istifadə edərək hər hansı müdaxilənin (layihə, siyasət və ya inkişaf strategiyası) gözlənilən nəticələrinin formalaşdırılması

Nəticələr planı müəyyən bir müdaxilənin - layihə, proqram və ya inkişaf strategiyasının gözlənilən nəticələrinin müxtəlif səviyyələrdə aydın şəkildə (qrafik, matrisvə s. şəkildə) təsvir olunmasıdır.

### ? Gözlənilən nəticələrin işlənib hazırlanmasında istifadə olunan nümunə suallar

- Qısa, orta və uzunmüddətli perspektivdə hansı gender bərabərliyi nəticələrinə nail olmaq olar?
- Təklif olunan nəticələr çərçivəsi təhlildə təsvir olunan gender bərabərsizliyinin aspektlərini necə həll edəcəyini əks etdirirmi? Müəyyən edilmiş gender boşluqlarını aradan qaldırmaq üçün konkret hədəfləri əhatə edirmi?
- Nəticələr həm qadınlar, həm də kişilər üçün uyğunluğu və faydalarına görə planlaşdırılıbmı?
- Spesifik gender nəticələri, göstəriciləri və ya əsas sualları hazırlanıbmı?
- Bacarıqların inkişafı üçün daxil edilən fəaliyyətlər problemlə əlaqəli gender bərabərsizliyini azaldırmı?
- Həll olunası ehtiyacların məqsəd və gözlənilən nəticələrinin seçilməsində kimlər iştirak edib?

## Gender yönümlü analiz alətindən istifadə edərək hər hansı bir müdaxilənin büdcə və iş planının işlənib hazırlanması

Hər hansı bir müdaxilənin (siyasət, layihə və ya proqramı) iş planı, büdcə və insan qaynaqları strukturunda gender bərabərliyi və qadınların səlahiyyətlərinin artırılması kimi başlıca gender ölçüləri əks olunmalıdır.

### ? Bu mərhələdə istifadə olunan gender analizi üçün nümunə sualları [31]:

**Gender bərabərliyi və qadınların səlahiyyətlərinin artırılması üçün kifayət qədər resursların təmin edilməsinin müəyyənləşdirilməsi**

- İş planında konkret gender fəaliyyətləri müəyyənləşdirilibmi? Hansı təşkilat(lar) vasitəsilə qadınlar iş planının icrası və qərarvermə prosesində iştirak edəcəklər?
- Layihədə imkanlar, faydalar və resurslarda kişi və qadınların bərabər iştirakı və çıxışının təmin olunması əsas meyar kimi müəyyənləşdirilibmi?
- Gender bərabərliyi və qadınların səlahiyyətlərinin artırılması üçün gender yönümlü resurs bölgüsü varmı? Bölgü büdcənin neçə faizini təşkil edir?

[31] https://info.undp.org/sites/bpps/SES_Toolkit/SES%20Document%20Library/Uploaded%20October%202016/UNDP%20Guidance%20Note%20how%20to%20conduct%20a%20gender%20analysis.pdf

- Bu resursların paylanmasınıyoxlamaq mümkün olacaqmı? Bunun üçün gender markerleri təyin etmisinizmi? (məsələn, GEN2 və ya GEN3 kimi)
- Gender bərabərliyi məqsədlərinə nail olmaq üçün ayrılmış və sərf olunmuş resursların monitorinq üçün büdcədə hər hansı hesabat mexanizmi müəyyənləşibmi?
- Layihənin həyata keçirilməsində gender ekspertləri, qadın təşkilatları və müvafiq qurumlar və şirkətlər iştirak edəcəkmi?

## Gender analizindən istifadə edərək hər hansı müdaxilənin qiymətləndirmə və monitorinq planının hazırlanması

***Gender analizi alətindən hər hansı bir layihənin icrası zamanı gender baxımından irəliləyişin yoxlanılması məqsədilə istifadə edilə bilər.***

Bunun üçün gender məsələləri Monitorinq və Qiymətləndirmə (M&Q) Planında yer almalıdır. M&Q planlaşdırılan fəaliyyətlərin gender bərabərliyi məqsədlərinə nail olunub-olunmadığını qiymətləndirməyə kömək edir və sosial kateqoriyalar üzrə bölünmüş qadın və kişi benefisiarlara təsiri barədə rəylə təmin edir.

M&Q-in hazırlanması və tətbiqi, layihənin müəyyənləşdirilməsinin ilk mərhələsindən başlayır və layihə dövrü ərzində davam edir. Aşağıdakı qrafiklərdə layihə dövrünün müxtəlif mərhələləri və həmin mərhələlərdə monitorinq və qiymətləndirmə üçün təkliflər əks olunmuşdur [32].

[32] http://www.fao.org/elearning/Course/FG/en/pdf/1240_text_only_1240.pdf

# Layihənin hazırlanma mərhələsi

Layihənin komponent və gözlənilən nəticələri layihənin gender həssas məqsəd və hədəflərini əks etdirirmi?

Gender həssas proqramlar və fəaliyyətlər qəbul edin: proqaram və layihələrin məqsəd, fəaliyyət və nəticələrinin qadın və kişilərin əvvəllki mərhələdə müəyyənləşdirilmiş ehtiyac və önçəliklərini əks etdirdyini təmin edin.

Gender aspektləri iqtisadi, maliyyə, texniki, institusional, sosial, ekoloji və iştiraklı analizə daxil edilibmi?

Gender yönümlü təhlil və sosial-mədəni qiymətləndirmə həyata keçirin.

Bacarıqların inkişafı üçün sizin kifayət qədər resurslarınız varmı?

Gender həssas M&Q nəzərə alınması üçün bacarıqların inkişafına lazımı resurslar planlaşdırıb ayırın.

M&Q üçün hansı gender həssas göstəricilər seçməlisiniz?

Layihənin nəticə və təsirini qiymətləndirmək üçün gender əsaslı kəmiyyət və keyfiyyət göstəricilərini iştirakçı yolla seçib hazırlayın.

Məlumatları gender baxımından necə toplayıb analiz edirsiniz?

Gender həssas məlumatlar toplama metod və alətlərini seçin, məlumatı emal etmək üçün gender həssas bir proqramı özündə cəmləşdirən M&Q sistemini hazırlayın.

## Layihənin müəyyənləşdirilməsi və hazırlanma mərhələsi

Hədəf qruplarının hazırki vəziyyəti necədir?

Cins, yaş, sosial iqtisadi vəziyyət, təhsil və sairə görə bölünmüş ilkin tədqiqatlar aparmaq.

| | |
|---|---|
| Layihənin müəyyənləşdirilməsi prosesinə bütün maraq tərəfləri cəlb olunubmu? Təklif olunan layihədən məhrum olacaq hər hansı tərəf olacaqmı? | Gender həssas maraq tərəflərinin ilkin təhlililini aparmaq və müxtəlif proqram variantlarını müəyyənləşdirmək. |
| Layihədə nəzərdə tutualn resurs və xidmətlərlər bağlı qadın və kişilərin ehtiyac və qayğıları nələrdi? | Gender baxımından narahatlıq və ehtiyacların iştirakļı müəyyənləşdirilməsini həyata keçirmək və gender həssas göstəriciləri formalaşdırmaq. |
| Gender həssas M&Q-ni aparmaq üçün lazım resurslarınız varmı? | M&Q-ni aparmaq üçün təşkilati bacarıqları müəyyənləşdirmək və işçi heyəti və maraq tərəfləri üçün bacarıqların inkişafi fəaliyyətlərini planlaşdırmaq. |
| Layihənin tərtibatı zamanı M&Q-nin qurulmasına necə kömək edə bilərsiniz? | Mümkünlük araşdırmasının bir hissəsi olaraq gender həssas göstəricilər daxil olmaqla ilkin gender yönümlü təhlil və sosial-mədəni qiymətləndirmə ilə konsepsiya kağızını hazırlamaq. |

## Layihənin həyata keçirilməsi və monitorinq mərhələsində M&Q üçün təkliflər:

- Genderə uyğun fəaliyyətlərin layihənin əməliyyatlar təlimatına daxil edilməsini təmin edin;
- Proqram icraçıları və maraqlı tərəflər üçün gender mövzusunda bacarıqların inkişafı fəaliyyətlərini həyata keçirin;
- Cinsi bölgü üzrə məlumatları toplayın və hər hansı irəliləyişi tərtib edilmiş nəticələr göstəricilərinə əsasən monitorinq edin;
- İştiraklı M&Q həyata keçirin və nəticələrini M&Q sisteminə daxil edin;
- Proqram və M&Q heyətinin köməkliyi ilə əldə edilmiş irəliləyişi və öyrənilən dərsləri müəyyən edin və lazımi düzəlişlərin verilməsi üçün tövsiyələr verin;
- Müvafiq maraqlı tərəflərin iştiraklı gender yönümlü auditin aparılmasını təşviq edin.

## Layihənin Başa Çatması və Qiymətləndirilməsi Mərhələsi

- Gender yönümlü nəticə və təsirlərin qiymətləndirilməsini işləyib hazırlayın;
- Öyrənilmiş dərslərin layihənin məqsəd və vəzifələrinə necə tətbiq ediləcəyini nəzərdən keçirin;
- Gender aspektləri daxil edilmiş M&Q-nin ümumi prosesi haqqında bir nümunə hazırlayın və yayın.

## Layihə müdaxilələrinin irələyişlərini yoxlamaq üçün gender analizi nümunə sualları

**Monitorinq planı gender bərabərliyi sahəsində irəliləyişləri monitorinq etmək və qiymətləndirmək üçün tədbirləri əhatə edirmi?**

- Monitorinq planına müdaxiləyə uyğun ölçülə bilən gender göstəriciləri daxildirmi?
- Layihədə gender bərabərliyi və qadınların səlahiyyətlərinin artırılmasına müsbət təsirlərini müəyyənləşdirmək üçün konkret fəaliyyət, resurs və məsuliyyətlər nəzərə alınıbmı? Onlar gender marker ilə qeyd olunubmu?
- Monitorinq və qiymətləndirmə üçün xüsusi gender bacarıqlarına ehtiyac varmı? Monitorinqə cavabdeh olan şəxslərin kifayət qədər gender bilikləri və səriştələri varmı?

# Ən çox istifadə olunan Gender Analitik Alətlər - 4R metodu və Moser nəzəri alət haqqında Ümumi Məlumat

Gender yönümlü analizdən istifadə etmək üçün praktik alətlərdən başqa, bir sıra nəzəri analitik metodlar, nəzəriyyələr də vardır ki, gender perspektiv baxımından təhlil aparmağa, qadın və kişilərin siyasət, layihə və proqramlarda təmsilçiliyi və iştirakını artırmaq üçün suallar verməyə, məlumatları analiz etməyə və strategiyalar hazırlamağa köməklik göstərir. Aşağıda ən çox tanınan və tez-tez gender yönümlü həssas yanaşma üsulu kimi istifadə olunan nəzəriyyələrin bir neçəsi haqqında ümumi məlumatlar verilmişdir [33]:

[33] https://op.europa.eu/s/ped3

## 4R Metodu

Bu üsul İsveç Gender Yönümlü Həssas Yanaşma Dəstək Komitəsi "JämStöd" tərəfindən gender yönümlü yanaşmaya dair son hesabatına əsasən hazırlanmışdır [34]. 4R metodu hər hansı təşkilat və ya qurumda mövcud olan gender modelleri, təsirləri haqqında məlumat verir və gender bərabərliyini inkişaf etdirmək üçün fəaliyyətlərin necə dəyişdirilməli olduğunu başa düşmək üçün istifadə olunur.

[34] https://www.includegender.org/toolbox/map-and-analyse/4r-method/

**Representation (Təmsilçilik):** qərar qəbuletmə prosesinin bütün səviyyələrində gender bölgüsü fəaliyyətlərini həyata keçirən təşkilat və ya qurumda gender təmsilçiliyini araşdırır. Müxtəlif cinslərə mənsub olan işçilər təşkilatdakı müxtəlif hissələrdə və proseslərdə necə təmsil olunur?

**Resources (Resurslar):** resursların paylanmasını araşdırır – qadın və kişilər arasında pul, vaxt, məlumat və digər imkanların bölünməsi və paylanmasını araşdırır. Resurslar cinslər arasında necə bölüşdürülür?

**Realia:** təmsilçilik və resursların cinsi bölgü üzrə paylanmasının səbəblərini başa düşmək üçün şərtlərin təhlili. Təmsilçilik və resursların bölgüsünə təşkilatdakı gender normaları / qaydaları nə dərəcədə təsir edir?

**Realisation (Həyata keçirmə):** gender bərabərliyinə nail olmaq üçün hədəf və tədbirlərin formalaşdırılması. Təmsilçilik və resursların bölgüsündə gender bərabərliyinə nail olmaq üçün daha hansı məqsəd və tədbirlər formalaşdırılmalıdır?

# Moser nəzəri analitik üsul [35]

***Karoline Moser tərəfindən hazırlanmış bu üsulun məqsədi qadınları tabeçilikdən azad etmək, onların bərabərlik, ədalət və səlahiyyətlərinin artırılmasına nail olmalarını təmin etməkdir.***

Moser gender yönümlü analiz və planlaşdırma üsulu gender rolları və gender ehtiyacları anlayışlarına əsaslanır. Bu nəzəri üsula əsasən gender ehtiyacları iki növə ayırılır: qadınların gündəlik həyatı ilə əlaqəli, lakin mövcud gender münasibətlərini qoruyub saxlayan gender ehtiyacları (praktik gender ehtiyaclar) və mövcud gender tabeçiliyini dəyişdirən ehtiyaclar (strateji gender ehtiyacları).

## Moser üsullu aşağıdakı məsələləri əhatə edir:

- Gender rollarının aydınlaşdırılması (produktiv / məhsuldar, reproduktiv və icma işi kimi rollar / vəzifələr): Qadınlar, kişilər, oğlanlar və qızlar müxtəlif məhsuldar, reproduktiv və icma idarəetmə fəaliyyətlərində nə işlə məşğuldurlar?
- Gender ehtiyaclarının qiymətləndirilməsi: Qadınların praktik və strateji ehtiyaclarını aydınlaşdırır.
- Məişət daxilində resursların idarə edilməsi, qərar qəbuletmə, eləcə də, iqtisadi fəaliyyətlərin resurs və faydalarına çıxış və idarə edilməsinin profilini müəyyənləşdirir.

[35] https://www.ndi.org/sites/default/files/Guide%20to%20Gender%20Analysis%20Frameworks.pdf

- Üçqat gender rolunu tarazlaşdırmağa yönəlik planlaşdırma - hər hansı bir siyasətin və ya layihənin üçqat gender rollarına təsirini araşdırır.
- Siyasət müdaxilələrində müxtəlif məqsədləri ayırd edir / fərqləndirir: müxtəlif planlaşdırma fəaliyyətlərinin qadınların tabeçilik vəziyyətini necə dəyişdiyini araşdırır. Müxtəlif yanaşmalar praktik və ya strateji gender ehtiyaclarını nə dərəcədə qarşılayır?
- Prosesə qadın və gender məsələləri ilə əlaqəli təşkilatların cəlb olunması yollarına baxır, onlara yalnız təhlildə deyil, həm də müdaxilə məqsədlərinin müəyyənləşdirilməsi və həyata keçirilməsində iştirak etmələrini tövsiyə edir.

# Qısaltmalar və İxtisarlar

**GYHY - Gender Yönümlü Həssas Yanaşma**

**GANB - Gender Amillərini Nəzərə alan Büdcə**

**DMİ - Dövlət Maliyyə İdarəetməsi**

**AQUPDK - Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi**

**MN - Maliyyə Nazirliyi**

**GYT - Gender Yönümlü Təhlil**

**MTGHM - Maraqlı Tərəflər ilə Gender Həssaslı Məsləhətləşmə**

**GMA - Gender Məlumatlılığının Artırılması**

**ÜDM - Ümumdaxili Məhsul**

**CEDAW - "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiya**

**UDİ - Universal Dövrü İcmal**

**M&Q - Monitorinq və Qiymətləndirmə**

# Terminlər və anlayışlar lüğəti

**Gender:** Gender və cins sözləri bəzən sinonim kimi istifadə edilsə də, fərqli anlayışlardır. Beləki, gender təbii hadisə yox, sosial formadır, qadın və kişilər arasındakı bioloji və fiziki fərqləri müəyyənləşdirir, kişi və qadınların ictimai münasibətlər çərçivəsində formalaşan rol və vəzifələrini əhatə edir. Cins kişiləri, qadınları və interseksləri fərqləndirən bioloji və fizioloji fərqləri nəzərdə tutur.

**Qadınların Səlahiyyətlərinin Artırılması (Women's Empowerment):** Qadınların bir çox tədbir və fəaliyyətlər vasitəsilə, məsələn, maarifləndirmə, məlumatlılıq və savadlılıq səviyyəsinin artırılması və təlimlər vasitəsilə qadınların bilik və bacarıqlarının artırılması fəaliyyətlərini əhatə edir.

**Gender Analizi (Gender Analysis):** Kişi və qadınlar arasındakı əlaqələri, resurslara çıxışlarını, fəaliyyətlərini və qarşılaşdıqları fərqli məhdudiyyətləri başa düşmək üçün istifadə olunan müxtəlif metodlara aiddir və gender münasibətlərinin hər hansı inkişaf probleminə necə təsir etdiyini aydınlaşdıran sosial-iqtisadi təhlil növüdür.

**Gender Balansı (Gender Balance):** Qadın və kişilərin iş, layihə və proqramların bütün sahələri və səviyyələrində bərabər təmsil olunmasını, bunun üçün maneələrin aradan qaldırılması və hər kəsin bioloji mənsubiyyətindən asılı olmayaraq potensial imkanlara nail olmasını təmin edir. Kadrlaşmada gender balansı hər hansı təşkilatın bütün səviyyələrdə kişi və qadın işçilərin bərabər təmsil olunmasını təmin edir.

**Gender Bərabərliyi (Gender Equality):** Cinsi mənsubiyyətindən asılı olmayaraq bütün şəxslərin bərabər hüquq, vəzifə və imkanlara malik olmasıdır.

**Gender Yönümlü Həssas Yanaşma (Gender Mainstreaming):** Gender bərabərliyinə nail olunması üçün hər hansı sahə və bütün səviyyələrdə siyasət, proqram və ya qanunvericilikdə daxil olmaqla, planlaşdırılan fəaliyyətin bütün fərdləri üçün gender təsirlərinin qiymətləndirilməsi prosesinə aiddir. Qadınlar, kişilər, oğlan və qızların narahatlıq və təcrübələrinin siyasət və proqramların tərtibi, həyata keçirilməsi, monitorinq və qiymətləndirilməsi prosesinin ayrılmaz bir aspekti olmasını təmin edərək onların bərabər faydalanması üçün bir strategiyadır.

**Gender əsaslı reaksiya (Gender Responsiveness):** Yanaşmalar, metodologiyalar, alətlər və ya məlumatların təhlili üsulları baxımından rəftarda bərabərliyi, ədalətsiz rəftarla nəticələnəcək müəyyən bir cinsə daha çox rəğbət bəsləmə və ya qərəzliliyin qarşısının alınmasını nəzərdə tutur.

**Gender həssaslığı (Gender sensitivity):** İctimai və özəl həyatın müxtəlif sferalarında gender əsaslı təcridolma və ayrı-seçkiliyə zəmin yaradan sosial və mədəni amillərin dərk edilməsi və nəzərə alınması məqsədinə aiddir və diqqəti daha çox qadınların mövqe və rollarında struktur çatışmazlığı hallarına yönəldir.

**Genderə məsələlərinə dair (Gender Specific) anlayış:** Gender problemlərinə xüsusi diqqət yetirməyi nəzərdə tutur. Genderə xas qiymətləndirmə, müdaxilə və fəaliyyətlər, qadın, kişi və digər qruplar üçün gender

normaları, rolları və münasibətlərini, onların resurslara təsirini və idarə etməsini və bu qrupların xüsusi ehtiyaclarının qarşılanmasını nəzərdə tutur. Müəyyən siyasət və ya proqram məqsədlərinə çatmaq və ya müəyyən ehtiyacları ödəmək üçün müəyyən bir qrupu bilərəkdən hədəfə alır və faydalandırır.

**Cinsi bölgü üzrə ayrılmış məlumatlar (Sex-disaggregated data):** Kişilər və qadınlar üzrə ayrıca toplanan və təqdim olunan məlumatlardır[36].

**Gender Kor (Gender Blind) anlayışı:** Gender aspektlərinin nəzərə alınmamasını bildirir. Məsələn, gender normalarının və qeyri-bərabər güc münasibətlərinin layihə məqsədlərinə çatmasına necə təsir etdiyini və ya layihə məqsədlərinin genderə necə təsir edə biləcəyini izah edir.

**Gender Həssas (Gender-Sensitive):** Kişi və qadın olması ilə əlaqəli sosial-mədəni amillərlə müəyyənləşdirilən rolları, vəzifələri, hüquqları və qəbul edilmiş davranışları daha aydın izah edən siyasət, proqram və ya fəaliyyətləri təsvir edir. Həmçinin, bu anlayış qadınlar və kişilər, oğlanlar və qızlar arasındakı güc münasibətlərini nəzərə alan siyasət və proqramları təsvir edir.

**Gender Perspektivi/Gender Obyektivi(Gender Perspective/Gender Lens"):** Cəmiyyət və mədəniyyət, yaş, din və ya etnik mənsubiyyət kimi faktorların həm qadınlara, həm də kişilərə tətbiq etdiyi gender rolları, sosial və iqtisadi əlaqələr, ehtiyaclar, resurslara çıxış və digər məhdudiyyət və imkanları nəzərə alır.

[36] UN-Women, Guidance Note: Gender Mainstreaming in Development Programming (2014).

# Ədəbiyyat siyahısı


1. “Gender bərabərliyinin (kişi və qadınların) təminatları haqqında“ Azərbaycan Respublikasının Qanunu, 10 oktyabr 2006-cı il (http://www.e-qanun.az/framework/12424)

2. Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında“ Prezidentin Fərmanı, 6 mart 2000-ci il (http://www.e-qanun.az/framework/597)

3. Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında“ Fərmanın icrası haqqında Nazirlər Kabinetinin Qərarı, 26 sentyabr 2000-ci il (http://www.e-qanun.az/framework/499)

4. Gender Amillərini Nəzərə alan Dövlət Maliyyə İdarəetməsinin Qiymətləndirilməsi üçün Əlavə Çərçivə, PEFA-nın Katibliyi,2020, Velham və digərlərinə istinadən, 2018

5. Beynəlxalq Büdcə Tərəfdaşlığı, 2017,  Azərbaycan üzrə Açıq Büdcə Sorğusu.

6. Azərbaycan üzrə Ölkə Gender Qiymətləndirilməsi, AİB, 2019, Manila

7. Dövlət qulluğunda gender bərabərliyi, BMT-nin İnkişaf Proqramının dövlət qulluğunda gender məsələləri layihəsi, Aysel Vəzirova, 2010 (http://www.undp.org/content/dam/azerbaijan/docs/Governance/AZ_Gender_in_Civil_Service_Analysis_20101209.docx)

8. “Azərbaycanda gender büdcəsinin tətbiqi üçün iqtisadi, siyasi, sosial və institusional bazanın təhlili” üzrə tədqiqat, Bakı, 2008 (http://www.budget.az/upload/files/Gender_budget_-_final_versiont_-_az.pdf )

9. BMT-nin “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında” Konvensiyası, 18 dekabr 1979-cu il (https://www.un.org/womenwatch/daw/cedaw/)

10. “Qadın Hüquqlarının Müdafiəsi: Beynəlxalq və Milli Aspektlər”, Bakı, 2018, dərs vəsaiti

11. “Gender bərabərliyinin təmin edilməsinə dair Qanunvericilik Toplusu”, Bakı, 2018

12. Universal Dövri İcmal (UDİ) (https://www.ohchr.org/EN/HRBodies/UPR/Pages/UPRMain.aspx)

13. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin veb-saytı (http://www.scfwca.gov.az/)

14. “Gender terminlərinin izahlı Lüğəti”, Bakı, 2005

15. Gender Equality and Gender Relations in Azerbaijan: Current Trends and Opportunities, United Nations Population Fund (UNFPA) Azerbaijan State Committee of the Republic of Azerbaijan for Family, Women and Children’s Affairs, Bakı, 2018 (https://azerbaijan.unfpa.org/sites/default/files/pub-pdf/gender%20equality-en.pdf)

16. Gender Mainstreaming: Strategy for Promoting Gender Equality, Office of the Special Advisor on Gender Issues and Advancement of Women, 2001 (https://www.un.org/womenwatch/osagi/pdf/factsheet1.pdf )

17. English-Azerbaijani Glossary of frequently used terminology, UN Azerbaijan

18. Women’s empowerment principles - Equality Means Business, 2011 (https://www.unwomen.org/-/media/headquarters/attachments/sections/library/publications/2011/10/women-s-empowerment-principles_en%20pdf.pdf?la=en&vs=1504 )

19. Bridging the gap, FAO, 2009 (http://www.fao.org/3/i1243e/i1243e00.pdf)

20. The five principles of gender mainstreaming (https://www.wien.gv.at/english/administration/gendermainstreaming/principles/five-principles.html)

21. Guide to mainstreaming gender in FAO's project cycle (http://www.fao.org/3/i6854e/i6854e.pdf)

22. Gender Impact Assessment – Gender Mainstreaming Toolkit, EIGE, 2016 (https://migrationnetwork.un.org/resources/gender-impact-assessment-gender-mainstreaming-toolkit)

23. Gender Budgeting, EIGE, 2019 (https://op.europa.eu/s/pedz)

24. Gender awareness raising, EIGE, 2019 (https://op.europa.eu/s/pedB)

25. Monitoring progress towards gender equality in the Sixth Framework Programme, European Commission, 2010 (https://op.europa.eu/s/pedA)

26. EIGE's methods and tools, 2017 (https://op.europa.eu/s/peea)

27. Gender planning, EIGE, 2019 (https://op.europa.eu/s/pedZ)

28. Gender analysis, EIGE, 2019 (https://op.europa.eu/s/ped3)

29. How to conduct a gender analysis, UNDP, 2016 (https://info.undp.org/sites/bpps/SES_Toolkit/SES%20Document%20Library/Uploaded%20October%202016/UNDP%20Guidance%20Note%20how%20to%20conduct%20a%20gender%20analysis.pdf)

30. A Guide to Gender-Analysis Frameworks, Oxfam, 1999 (https://www.ndi.org/sites/default/files/Guide%20to%20Gender%20Analysis%20Frameworks.pdf)

31. Guidance Note: Gender Mainstreaming in Development Programming, UN-Women, 2014 (https://www.unwomen.org/~/media/headquarters/attachments/sections/how%20we%20work/unsystemcoordination/gendermainstreaming-issuesbrief-en%20pdf.pdf)

32. https://www.includegender.org/toolbox/map-and-analyse/4r-method/

33. https://www.un.org/ruleoflaw/blog/portfolio-items/austria-gender-budgeting/